www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 oktyabr 2025-ci il Çərşənbə № 186 (8796) Qiymәti 60 qәpik

**Xəbər**

**Ziyanlı yağların ölkəmizə idxalının arxasında kimlər durur?**

yazısı səh.15-də

**Gündəm**

**SOCAR-ın "LUKoil"in iki milyardlıq aktivlərini almasına əngəl**



Məsələdə Bolqarıstanın siyasi hakimiyyətinin ayrı-ayrı üzvlərinin maraqları da var

yazısı səh.12-də

**Londonun Azərbaycana silah embarqosunu ləğv etməsinin səbəbi**

yazısı səh.4-də

**ATƏT sədri Bakıya gələsi olmadı**

yazısı səh.13-də

**Bakının "3+3" israrı**

yazısı səh.4-də

**"Türk Şengeni"nin təsisi yaxınlaşır**

yazısı səh.6-də

**Bakı Moskvadan hansı addımları gözləyir?**

yazısı səh.5-də

**Qəzzanı kimlər və necə idarə edəcək?**

yazısı səh.9-da

**İrəvanda Paşinyanı "yıxmaq" hazırlığı**

yazısı səh.5-də

**Spikerlər İslamabad Bəyannaməsi qəbul etdi**

yazısı səh.11-də

**"Kitabımı oxumayıb mənimlə şəkil çəkdirirlər..." - Anar**

yazısı səh.10-da

**Paytaxtda moped sürənlərə qadağa gəlir**

yazısı səh.14-də

# İLHAM ƏLİYEV YAXIN ŞƏRQİN YENİDƏN DİZAYNINDA

Azərbaycan lideri son iki həftədə üç mühüm sammitdə iştirakı ilə şübhəli geosiyasi avantüralara qoşulmadığımızı göstərdi; Qəzza zirvəsində iştirakımızın isə iki mühüm səbəbi var...



yazısı səh.9-da

# Azərbaycandan Hindistana gözlənilməz jest

Rəsmi Bakı bir daha öz böyüklüyünü dünyaya nümayiş etdirdi; Yeni Dehli bunu necə qiymətləndirəcək?

yazısı səh.7-də



**Lavrov Xəzəryanı dövlətlərin səfirlərini niyə topladı?**

yazısı səh.8-də



Surxay Məmmədli

**QMİ sədrinin yaxın adamının "kredit günahı"**

yazısı səh.3-də



*Şeyx Əbdül:*

**"Ənvər Həsənov Fəxri Xiyabanda dəfn olunmayıbsa, ona qəbirüstü abidə qoyulmamalıdır?"**

yazısı səh.10-da

# Bakıda taksilərlə bağlı yeni qadağa




**Taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin sayına məhdudiyyətlər tətbiq ediləcək. Bu barədə Nazirlər Kabineti (NK) yeni qərar qəbul edib.**

Belə ki, Konstitusiyanın 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, avtomobil nəqliyyatı xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması, habelə ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımalarda nəqliyyat növləri üzrə sərnişin axınlarının paylanmasının optimallaşdırılması məqsədilə “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının 2.1-2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün verilən icazələrin əlavələrinin say həddi 25 000 müəyyən edilsin.

2. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları fəaliyyəti üçün icazələrin əlavələri Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə, “Lisenziyalar və icazələr haqqında” və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq və müraciət zamanı növbəlilik nəzərə alınmaqla verilsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin say həddinə dair təkliflərini hər təqvim ili avqustun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Bu Qərar 2025-ci il noyabrın 1-dən qüvvəyə minir və bu Qərarın 1-ci hissəsində qeyd olunan icazələrin əlavələrinin yeni say həddinin müəyyən olunduğu tarixədək qüvvədədir.



## MSK bu gün toplaşır - deputat mandatına xitam veriləcək

**Oktyabrın 15-də Mərkəzi Seçki Komissiyasının iclası keçiriləcək. İclasda Ramil Həsənin deputat fəaliyyətinə xitam verilməsi ilə bağlı məsələ müzakirə olunacaq.**

Qeyd edək ki, Ramil Həsən bu il iyunun 12-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Qazaxıstanın paytaxtı Astanada keçirilən 14-cü plenar sessiyasında təşkilatın baş katibi seçilib. O, yeni vəzifəsinə oktyabrın 15-dən etibarən başlayacaq.

## Tanınmış hərəkatçı vəfat etdi



**Milli Azadlıq Hərəkatının fəal iştirakçılarından biri, Ağstafa Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ayvazalı Orucov vəfat edib. “Qaynarinfo.az” xəbər verir ki, məlumatı mərhumun yaxınları sosial şəbəkələrdə paylaşıb. Onun xərçəng xəstəliyindən vəfat etdiyi bildirilir.**

Ayvazalı Həmid oğlu Orucov 1961-ci il martın 11-də Qazax rayonunun Qaçaq Kərəm kəndində anadan olub. 1988-ci ildən Milli Azadlıq Hərəkatına qoşulub. O, Ermənistanın təcavüzünə qarşı silahlı müqavimət hərəkatında da yaxından iştirak edib. Müstəqillik əldə edildikdən sonra - 1992-1993-cü illərdə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb.

Ailəli idi, dörd övladı, üç qızı və bir oğlu var. Allah rəhmət eləsin.

## Ukraynada daha bir azərbaycanlı həlak oldu

**Ukraynanın azadlığı və ərazi bütövlüyü uğrunda daha bir soydaşımız həlak olub. Bu barədə Ukraynada yaşayan jurnalist-diaspor fəalı Anar Natiqoğlu bildirib.**

30 yaşlı Faiq Faiq oğlu əslən Şirvan şəhərindəndir. Soydaşımız hücum desant bölmələrində kəşfiyyatçı vəzifəsini yerinə yetirib. Son döyüş tapşırığını 12 oktyabr tarixində həyata keçirərkən həlak olub.

## Dövlət bir nəfərin təhsilinə nə qədər pul xərcləyir?

**“Bu il peşə təhsili müəssisələrinə 27 mindən artıq tələbə qəbul olunub. Onların 84%-i dövlət sifarişli yerlər üzrə təhsil alacaq. Bizim ali təhsil müəssisələrinə isə tələbələrin yalnız 50%-i dövlət sifarişi üzrə qəbul olunur”.**

Bu sözləri elm və təhsil nazirinin müavini İdris İsayev jurnalistlərin suallarını cavablandırarkən deyib.

O bildirib ki, bir tələbəyə orta hesabla düşən xərcin məbləği 600-700 manatdır. Bəzi hallarda isə bir tələbənin illik xərcləri 2 700 manat olur.

“Ən çox xərclərimiz məktəbəqədər təhsil müəssisələrində olur. Burada bir uşağa təxminən 4000-4500 manat xərclənir. Bunun əsas səbəbi burada qida seqmentinin olmasıdır, yəni uşaqlara qida verilir. Bu səbəbdən də xərclər daha yüksəkdir”.

## Yağış yağacaq



**Oktyabrın 15-də gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi axşam şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 14-17, gündüz 20-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu, nisbi rütubət isə gecə 80-85 %, gündüz 60-65% olacaq.

## Bakıda qadın evdə doğuş etdi

**Xəzər rayonunda çağırışa gedən təcili tibbi yardım briqadası doğuş prosesini evdə icra etmək məcburiyyətində qalıb.**

Bu barədə TƏBİB-dən məlumat verilib.

Bildirilib ki, çağırış ünvanında təcili tibbi yardım heyəti 38 həftəlik hamilə olan 27 yaşlı qadının doğuş prosesini idarə edib. Doğuşun ilkin mərhələsi birbaşa yaşayış ünvanında baş verib, daha sonra isə proses təcili tibbi yardım avtomobilində nəzarətdə saxlanılıb.

Təcili tibbi yardım briqadası ana və yenidoğulmuşa zəruri ilkin tibbi yardım göstərdikdən sonra onlar müvafiq tibb müəssisəsinə təxliyə edilib.

Hazırda ana və körpənin müalicəsi Xəzər Tibb Mərkəzində davam etdirilir. Körpə oğlandır, çəkisi 3 kq. 150 qr., boyu 50 sm-dir. Hər ikisinin vəziyyəti qənaətbəxşdir.

## Laçına daha 30 ailə köçürüləcək




**“Ümumilikdə Laçına 3 650 sakin köçürülüb. Gələn il Laçında dörd yeni yaşayış məntəqəsinin tikintisinə başlayacağıq”.**

Bunu Oxu.az-a açıqlamasında Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov deyib.

O qeyd edib ki, Laçında yaşayanlar, çalışanlar və xidmət edənlərin ümumi sayı 4 500-5 000 arasındadır: “Yəni bu gün orada tam həyat qurulub, infrastruktur təşkil olunub və işlər davam etdikcə sakinlərin köçürülməsi də həyata keçiriləcək. Bu ilin sonunadək biz Laçına 30 ailənin köçünü təşkil edəcəyik. Hazırda bununla bağlı son tamamlama işləri gedir. Yeni köçəcək ailələr üçün evlərin tikintisinin başa çatdırılması işləri aparılır. Xüsusilə yolların təzələnməsi işləri görülür”.

M.Məmmədov əlavə edib ki, Laçınla bağlı gələn il üzrə böyük planlar reallaşacaq: “2027-2030-cu illər üzrə daha böyük məqsədlərimiz var. Hədəflərimiz böyük olduğundan çalışırıq ki, ardıcıl, məqsədyönlü və məntiqi addımlarla irəliləyək”.



## Azərbaycan Ordusu payız-qış mövsümünə keçir

**Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun bütün qoşun növlərində və hərbi hissələrində, o cümlədən Əlahiddə Ümumqoşun Orduda silahların, döyüş və xüsusi texnikaların, həmçinin aviasiya vasitələrinin payız-qış mövsümü istismarı rejiminə keçirilməsi ilə bağlı kompleks tədbirlər həyata keçirilir.**

Müdafiə Nazirliyi xəbər verir ki, göstərilən texniki xidmət çərçivəsində hərbi hissələrin texniki xidmət məntəqələrində texnikalar mövsümə uyğun yanacaq-sürtkü materialları ilə təmin olunur, elektrik sistemləri yoxlanılaraq zəruri xidmətlər göstərilir.

Hərbi hissələrə lazım olan ehtiyat hissələri və avadanlıqlar mərkəzləşdirilmiş şəkildə çatdırılaraq tam təminat normalarına uyğun yerinə yetirilir.

Döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və bölmələrin döyüş qabiliyyətinin artırılması məqsədilə yerinə yetirilən mövsümi xidmət tədbirləri təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla icra edilir.




## Yeni pulsuz parklanma yerləri açıqlandı

**Bakıda yeni parklanma yerləri təşkil edilib. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) yaydığı məlumata görə, Hüseyn Cavid və Atatürk prospektlərində, 2-ci Fəvvarlər, 1-ci Yaşıl ada, Seyid Cəfər Pişəvəri, Landau, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Ağadadaş Qurbanov, Mərdanov qardaşları, Dilarə Qədirbəyova və Adil Məmmədov küçələrində ödənişli parklanma məntəqələri yaradılaraq sürücülərin istifadəsinə verilib.**

Yaxın günlərdə Dadaş Bünyadzadə, Yeni Yasamal, Məhəmməd Xiyabani, Bəhruz Nuriyev, Naxçıvanski, Şirin Mirzəyev, Məshəti Gəncəvi, Mehdi Abbasov, Bəkir Çobanzadə və Ədhəm Orucəliyev küçələrində parklanma yerləri istifadəyə veriləcək. Nişanlanma xətlərinin çəkildiyi küçələrdə müvafiq yol nişanları quraşdırılacaq.

Parkinqə tələbatın az olduğu ərazilərdə isə ödənişsiz parklanma yerlərinin təşkili davam etdirilir. Belə ki, İzzət Nəbiyev, Şövqiyar Abdullayev, Xəlil Rza Ulutürk və Ələsgər Qayıbov küçələrində müvafiq infrastruktur qurularaq avtomobillərin pulsuz park edilməsi üçün də şərait yaradılıb.

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025

# QMİ sədrinin yaxın adamının "kredit günahı"

## İlahiyyatçılar deyir ki, faiz böyük günahdır, amma kredit...


Surxay Məmmədli

**Azərbaycanda çox az sayda adam olar ki, onun banklara kredit borcu olmasın. Çünki əhalinin əksəriyyəti ya xaricdə işləyən yaxınlarının göndərdiyi pulla, ya da bankdan aldıqları kreditlə dolanırlar. Hətta telefon, hansısa ev əşyasını, hətta geyimlərini belə kreditlə alanlar var. İnsanlar külli miqdarda məbləği banklardan alır, sonra isə onu az-az ödəyir, təbii ki, faizi ilə.**

Tanınmış din xadimi, İçərişəhər "Cümə" məscidinin axundu, Qafqaz Müsəlmanları İdarəsinin İçərişəhər üzrə səlahiyyətli nümayəndəsi Surxay Məmmədlinin idarə etdiyi "Nissan Patrol" markalı avtomobilin 250 000 manat dəyərində olması haqda iddialarla bağlı verdiyi açıqlama müzakirə yaradıb. Din xadiminin avtomobili təxminən bir il əvvəl 33 min manata, kredit yolu ilə əldə etdiyini deməsi tənqidə səbəb olub, kreditin dində haram olduğu bildirilib. Pravda.az bu barədə S.Məmmədlinin mövqeyini öyrənməyə çalışıb. O isə "Açıqlamada hər şeyi demişəm. Təfərrüata ehtiyac duymuram..." deməklə kifayətlənib. Kredit faizli borc deməkdir. Faiz də İslam dininin ən ağır qadağalarından biridir. Hazırda müsəlman aləmində bu problemin necə həll edilməsi ilə bağlı müzakirələr də gedir. Hətta Azərbaycanda faizsiz kredit verən İslam bankının yaradılması haqqında da fikirlər səslənir. Ancaq dini ekspertlərə görə, banklardan kreditlə pul almaqdan fərqli olaraq kreditlə əşya almaq günah hesab edilmir.

Bəs İslam ölkələrində kredit məsələsi necə həll edilir? İslamda faiz (riba) qadağandır, çünki bu, ədalətsiz qazanc və insanların istismarına səbəb ola bilər. Bu səbəbdən, faiz əsaslı ənənəvi kredit sistemindən fərqli olaraq, İslam ölkələrində faizsiz, halal alternativlərdən istifadə olunur. Bu sistemə ümumilikdə İslam bankçılığı deyilir. İslam bankçılığı faizsiz işləyən maliyyə sistemidir. Burada əsas prinsiplərdən biri də odur ki, bank müştəri ilə riski və gəliri bölüşür. Bu sistemdə qazanc faiz kimi sabit rəqəm üzərindən deyil, real iqtisadi fəaliyyət nəticəsində əldə olunan gəlirə əsaslanır. Eyni zamanda maliyyə əməliyyatları haram sayılan sahələrə (məsələn, alkoqollu içkilər, qumar, donuz məhsulları və s.) yönəldilə bilməz.

İslam banklarında kredit əvəzinə bir neçə əsas maliyyə üsulu tətbiq olunur. Bunlardan biri murabaha adlanır. Bu üsulda bank müştərinin istədiyi malı alır və üzərinə müəyyən mənfəət qoyaraq ona satır. Müştəri bu məbləği hissə-hissə geri ödəyir. Burada faiz yoxdur, sadəcə, satış mənfəəti var. Digər bir üsul icarə modelidir. Bank bir əmlakı alıb müştəriyə icarəyə verir, ödənişlərin sonunda isə əmlak müştərinin mülkiyyətinə keçir. Mudaraba modeli isə əmək və kapitalın birləşməsinə əsaslanır. Bank kapital qoyur, müştəri isə işləyir və əldə olunan qazanc əvvəlcədən razılaşdırılmış nisbətdə bölünür. Zərər olduğu halda isə yalnız kapital sahibi, yəni bank məsuliyyət daşıyır. Bundan başqa, muşaraka - yəni ortaq investisiya forması da geniş tətbiq olunur. Burada həm bank, həm müştəri ortaq şəkildə investisiya qoyur, gəlir və zərər birlikdə bölünür. Halal bankçılıq sistemi Malayziya, BƏƏ, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya kimi İslam ölkələrində geniş yayılıb və dövlət tərəfindən tənzimlənir. Eyni zamanda Böyük Britaniya, Almaniya, Fransa və Rusiya kimi qeyri-İslam ölkələrində də İslam bankçılığı xidmətləri fəaliyyət göstərir. İslam banklarının fəaliyyətində şəriət şurası xüsusi rol oynayır. Bu, İslam hüququ üzrə ixtisaslaşmış alimlərdən ibarət heyətdir və bankın təqdim etdiyi bütün məhsulları nəzərdən keçirərək onların şəriətə uyğun olub-olmadığını müəyyən edir. Bu, sistemin dini baxımdan etibarlı qalmasını təmin edir.

Göründüyü kimi, İslam ölkələrində kredit məsələsi faizsiz və ədalətli prinsiplərə əsaslanaraq, müxtəlif halal maliyyə mexanizmləri vasitəsilə həyata keçirilir. Bu sistem həm dini prinsiplərə sadiq qalır, həm də iqtisadi fəaliyyət üçün real alternativlər təqdim edir. Azərbaycanda isə bu sistem tətbiq olunmur. Bəs inanclı insanlar nələrə diqqət etməlidirlər?

**Deputat, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov mövzu ilə bağlı fikrini "Yeni Müsavat"la bölüşüb:** "Məsələyə dini baxımdan yanaşanda alimlərin ümumi yanaşması var. Bu da ondan ibarətdir ki, banklardan faiz götürülməsi, faizlə mal alınması yolverilməzdir. Düzdür, bunu şəriətlə müxtəlif şəkildə həyata keçirən mexanizmlər var. Amma ümumi yanaşma ondan ibarətdir ki, banklardan faizlə pul götürmək böyük günahdır. Bank faizlə işlədiyinə görə diqqətli olmalıyıq. Yalnız əşya almaqla bağlı istisna var, bunun da konkret bir mexanizmi mövcuddur. Bununla bağlı alimlərin müxtəlif fikirləri var. Qaldı ki, digər məsələlərə - hər kəs öz əməlini nəzərdən keçirməli, başqalarını müzakirə etməməlidir. Əsas məsələ odur ki, hər kəs öz əməllərinə baxmalıdır".

**İlahiyyatçı Ağa Hacıbəyli isə mövzu ilə bağlı "Yeni Müsavat"a verdiyi açıqlamada bildirib:** "Məsələnin dini tərəfini qeyd edərkən vurğulamaq lazımdır ki, Peyğəmbərimizin (s.ə.s) dövründə də çox ciddi faiz baronları yaşayırdı. Onlar yaşadıqları cəmiyyətə sitəm edirdilər. Çünki faiz - zülm üzərində qurulmuş bir sistemdir. Qarşısındakı insanın alın tərinə, əlinin qabığına hörmət etməyən düşüncə sistemidir. Zəifin üzərində güclünün qazanmasıdır. Ona görə İslamın ilk dövrlərində faiz kökündən rədd edildi. Qurani-Kərimdə bu barədə konkret ayələr var. "Bəqərə" surəsinin 279-cu ayəsində İslam dinində heç bir qadağanın bu qədər şiddətlə vurğulanmadığı bildirilir: Əgər faizdən əl çəkməsəniz, bilin ki, bu - Allah və Rəsuluna qarşı savaş elan etməkdir. Yer üzündə bir bəşəriyyə Allah bu şəkildə xəbərdarlıq edir: "Əgər sən faizdən əl çəkməsən, sən Allah və Rəsuluna qarşı savaşmısan" . Bu şəkildə Qurani-Kərimdə faizə qarşı mövqe ortaya qoyulub.

Peyğəmbərimizin (s.ə.s) hədisində isə faiz alanı da, yedizdirəni də, ona şahidlik edəni də Allah lənətləyib. O dövrdə Allah cəmiyyəti təmizləmək, onu tərəqqi halına gətirmək üçün insanları mənəviyyat bataqlığından bir-bir çıxardı. Faiz kimi bir bəladan cəmiyyət xilas olduqda, ayaqda dimdik duraraq həyata doğru addımlaya bilir. Ona görə də İslam bütün düşmənçilik bağlarını qopardı. Çünki faiz - vicdansız bir qazanc sistemidir. Tənbəl bir qazanc formasıdır. Bir qrup varlı insanın yüzlərlə, minlərlə, milyonlarla insanın əməyi üzərindən qazanması sistemidir. Buna görə İslam belə bir sistemi nə o dövrdə, nə də bu dövrdə qəbul etməyib".

**Kredit məsələsinə gəlincə, ilahiyyatçı bildirib ki, onun faizdən fərqli tərəfləri var:** "Ona görə fərqlidir ki, kredit pul üzərində deyil, alış-veriş üzərində qurulur. Kredit ticarətlə, hər hansı əməyin qarşılığında alınıb verilir. Ola bilsin ki, bu alış-veriş zamanı insanların razılığı da olur. Tərəflər razılaşırlar - məsələn, biri torpaq alacaq, orada əkinçiliklə məşğul olacaq, kənd təsərrüfatını inkişaf etdirəcək, yaxud arıçılıqla məşğul olacaq, iqtisadi fəaliyyət quracaq. Əgər bu prosesdə əmək, zəhmət varsa, o zəhmətin üzərində qurulan da ticarətdir və tərəflər buna razıdır. Amma faiz - konkret olaraq pulun üzərindən pul qazanmaqdır ki, bu da dinimiz tərəfindən qadağan olunub".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**




# "Sədərək"də reklam lövhələri söküldü

## Dövlət Reklam Agentliyi də, ticarət mərkəzi də özünü haqlı sayır

**"Sədərək" Ticarət Mərkəzində sahibkarlarla Azərbaycan Dövlət Reklam Agentliyi arasında narazılıq yaranıb.**

Sahibkarların iddialarına görə, ticarət mərkəzinin ətrafında yerləşdirdikləri ödənişli reklam lövhələri əvvəlcədən xəbərdarlıq edilmədən sökülməyə başlanıb. Onların sözlərinə görə, bu addım ciddi narazılığa səbəb olub. Bir qrup sahibkar bildirib ki, ərazidə 21 reklam lövhəsi dağıdılıb və nəticədə onlara təxminən 210 min manat dəyərində maddi ziyan dəyib.

Dövlət Reklam Agentliyi "Sədərək" Ticarət Mərkəzində çalışan mühafizəçilərlə agentlik əməkdaşları arasında yaşanan insidentə aydınlıq gətirib.

Agentliyin mətbuat xidmətindən Oxu.az-ın sorğusuna cavab olaraq bildirilib ki, baş vermiş hadisə ilə bağlı agentlik tərəfindən hüquq-mühafizə orqanlarına müraciət olunmayıb. "Mövcud qanunvericiliyə əsasən açıq məkanda reklam anlayışı və onun əhatə dairəsi mülkiyyət əsasında müəyyən olunmayıb. İstinad edilən məhkəmə qərarına gəldikdə isə həmin qərarın məzmunu reklam daşıyıcıları ilə bağlı deyil, açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi ilə əlaqədardır. Hazırda agentlik tərəfindən mütəmadi olaraq açıq məkandakı reklam daşıyıcılarının yenilənməsi, eləcə də həmin daşıyıcıların "Reklam haqqında" Qanuna, Nazirlər Kabinetinin müəyyən etdiyi reklam qurğularının yol kənarında yerləşdirilməsi standartlarına, reklam qurğularına aid texniki tələblərə və digər qanunvericilik aktlarına uyğunlaşdırılması istiqamətində zəruri tədbirləri görülür.

Dövlət Reklam Agentliyi tərəfindən "Sədərək" Ticarət Mərkəzinin kənarında yerləşdirilən bir sıra reklam daşıyıcılarının sadalanan qanunvericilik aktlarının tələblərinə cavab vermədiyi müəyyən edilib. Xüsusilə vurğulanmalıdır ki, sözügedən reklamlar ticarət mərkəzinin daxilində deyil, yol kənarından açıq şəkildə görünən, paytaxtın əsas giriş yollarından biri yerləşən, həmçinin açıq məkana ünvanlanan sahələrdə quraşdırılıb. Həmin reklam daşıyıcılarının mövcud vəziyyəti reklam qurğularına dair müəyyən edilmiş tələblərə cavab verməməklə yanaşı, yerləşdirildikləri ərazilərin estetik görünüşünə də mənfi təsir göstərir.

Bir daha qeyd edirik ki, agentlik sahibkarların mülkiyyət hüququna hörmətlə yanaşır və bu hüququn qorunmasını vacib prinsip kimi qəbul edir. Bununla belə, ictimai məkanın estetik görünüşünün qorunması, şəhər mühitində təhlükəsizliyin təmin edilməsi və qanunvericiliyin tələblərinə riayət olunması da prioritet istiqamətlərdəndir. Bu səbəbdən, həyata keçirilən tədbirlər sahibkarlıq fəaliyyətinə müdaxilə deyil, qanunvericiliyin tələblərinin icrasına və ictimai maraqların qorunmasına yönəlmişdir", - deyə məlumatda vurğulanır.

# Bakının “3+3” israrı

## Gürcüstan, nəhayət, inadından dönə bilər; diqqətlər yenə də Azərbaycanın üzərindədir

**“Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış “3+3 regional məşvərət mexanizminin aktuallığı artmaqdadır: “Bu təşəbbüs mövcud ikitərəfli və digər əməkdaşlıq formatlarını tamamlayır, regional təhlükəsizliyi və sabitliyi gücləndirir, iqtisadi artım və tərəqqi naminə yeni imkanlar yaradır”. Azərbaycan baş nazirinin müavinin Şahin Mustafayev belə deyib.**

“Yeni Müsavat” xatırladır ki, bu format altı dövlətin Rusiya, İran, Türkiyə, digər tərəfdən isə Azərbaycan, Gürcüstan və Ermənistanın əməkdaşlığını nəzərdə tutur. Azərbaycan-Rusiya münasibətlərində gərginlik, Tiflis və Moskva arasında hələ də diplomatik münasibətlərin bərpa edilməməsi, İran-İsrail savaşı "3+3" formatının taleyini böyük ölçüdə sual altında qoymuşdu. Türkiyə 1993-cü ildən Ermənistanla sərhədi bağlı saxlayır. Bunun nəticəsində avtomobil və dəmir yolu əlaqəsi yoxdur. Bütün bunlara baxmayaraq, Ermənistan və Türkiyə təmsilçiləri "3+3" platformasının işində iştirak edirlər. "3+3" formatında ölkələrin ümumi iqtisadiyyatı 3 trilyon dollara yaxındır. Bu da sərmayə qoyuluşu, sənaye, aqrar və xidmət sektorunda işbirliyi imkanlarının geniş olmasının göstəricisidir.

Yada salaq ki, buna qədər “3+3” formatının (Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Rusiya, İran) görüşləri olub. Birinci toplantı 2021-ci ilin dekabrında xarici işlər nazirlərinin müavinləri səviyyəsində Moskvada, ikinci görüş isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşıb. Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra üçüncü görüş isə İstanbulda keçirilib. Bu çərçivədə əməkdaşlıqdan birmənalı şəkildə imtina edən təkcə Gürcüstandır. Gürcüstanın işğal problemi qalmaqdadır.

“3+3” formatının yenidən gündəmə gətirilməsi regional əlaqələrdə, dialoq və əməkdaşlığın təmin edilməsi ilə gərginliyin azaldılmasına və sabitliyin təşviqinə kömək edə bilərmi? Gürcüstan olmadan bu format nə dərəcədə uğurlu fəaliyyət göstərə bilər?

Siyasi təhlilçi Sona Əliyeva Azərbaycanı “3+3” formatının ideya mərkəzi sayır. O, bununla bağlı "Yeni Müsavat"a fikirlərini çatdırıb: “Bakı istənilən vaxt bu ideyanın əsas donoru və moderatoru olmağa hazırdır. Beş il əvvəl, Vətən müharibəsinin başa çatmasından az sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən və region dövlətləri arasında sıx əlaqələri və inteqrasiyanı nəzərdə tutan “3+3” formatı təkcə yerli ekspertlərin deyil, beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edir. Söhbət Cənubi Qafqazda 6 ölkənin iştirakını nəzərdə tutan yeni əməkdaşlıq formatından gedir.

Hər bir məsələdə Azərbaycanla həmrəylik nümayiş etdirən qardaş Türkiyə ölkəmizin bu təşəbbüsünə də tam dəstək ifadə edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilk günlərdən bildirmişdi ki, "3+3" formatının fəaliyyətə başlaması regionda sülh və sabitliyə böyük töhfə verəcək. Həmin əməkdaşlıq formatının bir tərəfi Türkiyə, Rusiya və İran, digər tərəfi isə Azərbaycan, Gürcüstan və Ermənistandır. Bu altı ölkə regionun düyünlərini çözmək və "öz göbəklərini özləri kəsmək" iqtidarındadır. Amma ortada bir sıra əngəllər də mövcuddur.

Digər tərəfdən, bu formatın işləməsi üçün üç cari problem əngəl yaradır. Bunlardan biri və ən köklüsü Rusiya və Gürcüstan arasındakı



siyasi böhrandır. Tiflis və Moskva arasındakı münasibətlər demək olar ki, yox səviyyəsindədir. Abxaziya və Osetiya problemini həll etmədən Gürcüstan Rusiya ilə eyni çətir altında açıq əməkdaşlığa “hə” deməyəcək. Eyni zamanda hazırda Bakı ilə Moskva arasında da münasibətlərin üzərindən sərin meh əsir. Doğrudur, Düşənbə görüşündə Azərbaycan və Rusiya liderləri görüşdülər. Münasibətlərin isinməsi üçün addımlar atıldı. Hələlik son 10 aydakı soyuqluğu hərarətləndirməyə yetmir. Üçüncü məsələ isə Ankara və Tehran arasındakı casus qalmaqalıdır. Türkiyədə polisin keçirdiyi əməliyyat və İran casus şəbəkəsinin ifşası, mediada həftələrlə tirajlanması molla rejiminin türklərə qarşı “könlünü bulandırıb”. Amma istənilən halda regionun problemlərini region ölkələri həll etməlidirlər. Bu, xüsusən Zəngəzur dəhlizi üçün önəmlidir".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov qeyd etdi ki, “3+3” formatı region ölkələrinin əlaqələrinin inkişafı və problemlərin həlli üçün seçilən ən uyğun format hesab olunur:** "Təbii ki, həmin ölkələri, tarixi, iqtisadi, siyasi, mədəni, humanitar tellər bağlayır və bir-birilərindən qopmalar mümkün görünmür. Lakin Ermənistanın, Rusiyanın və İranın təcavüzkar siyasi ambisiyaları və apardığı yanlış siyasətlər Cənubi Qafqazda qeyri-sabit bir vəziyyət yaradıb. Dünyanın ən həssas nöqtələrindən olan Cənubi Qafqazda hələ də qalıcı sülhə, təhlükəsizliyə nail olunmayıb. Ermənistanla Azərbaycan arasında sülh sazişi paraflansa da, yekun sənəd imzalanmayıb, Rusiya Gürcüstanın Abxaziya və Cənub Osetiya bölgələrini işğal altında saxlayır, İran Azərbaycanla qeyri-dost mövqeyindən imtina etməyib. Bütün bunlar “3+3” formatının gələcəyini və perspektivini şübhə altına salır. Bir neçə dəfə Rusiya, İran, Ermənistan, Azərbaycan, Gürcüstan, Türkiyə tərəfi bir araya gələrək regiondakı problemlərin nizamlanmasna təşəbbüslər göstərilib. Ancaq Tiflis ərazilərinin Rusiya tərəfindən ilhaqını əsas tutaraq görüşlərə qatılmayıb. Rusiya ilə Azərbaycan arasında məlum təyyarə qəzası səbəbilə bir ilə yaxın müddət çəkən soyuqluq indi-indi isinməyə başlayır. Tehran ənənəvi siyasətində pozitiv kardinal dəyişikliklər etməyə həvəsli görünmür. Bir neçə gün əvvəl İranın, Rusiyanın və Azərbaycanın yüksək səviyyəli rəsmi şəxslərinin görüşü baş tutdu, nəqliyyat, gömrük mələləsində razılaşmalar əldə edildi. Bütün bunlar "3+3" platformasının aktiv işləyəcəyi demək deyil. Gürcüstan hələ də platformada aparılacaq müzakirələrdən özünü kənarda saxlayır. Tiflisin iştirak etməməsi region ölkələrini tam əhatələməsinə və problemlərin həllinə daha fundamental yanaşılmasına müəyyən əngəllər yaradır. Bu forma çərçivəsində Azərbaycan və Türkiyə daha praqmatik xətt tutublar və kənar qüvvələrin bura müdaxiləsinin dağıdıcı təsir göstərəcəyini anlayırlar. Biz Ermənistanın simasında belə cəhdləri müşahidə edirik. İrəvan Fransa, Hindistan kimi ölkələri regiona cəlb etməklə disbalans və ziddiyyətlər yaratmaqla yanaşı, regiona ənənəvi təsir zonası kimi baxan Rusiyanı, İranı və Türkiyəni qıcıqlandırır. Adlarını sadaladıqlarımızın özlərinin egionda milli maraqları olsa da, bunu digər region ölkələri ilə birlikdə uzlaşdırmaq olur. Ermənistandakı daxili siyasi-iqtisadi istiqrarsızlıq, Gürcüstandakı mövcud vəziyyət təbii ki, arzuolunan deyil. Regiondaxili ziddiyyətlərin, fikir ayrılıqlarının və bəzi hallarda maraqların toqquşması hallarının mövcudluğuna rəğmən "3+3" formatı əməkdaşlıq və dialoq üçün əlverişli fürsət və məkan ola bilər”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Londonun Bakıya embarqonu ləğv etməsinin səbəbi

## Britaniya Azərbaycana silah satışını bərpa edir - niyə indi...

**Böyük Britaniya Azərbaycan və Ermənistana qarşı silah embarqosunu tamamilə ləğv edir. Musavat.com xəbər verir ki, bu barədə Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dautin Böyük Britaniya parlamentinin saytında dərc olunmuş yazılı açıqlamasında bildirib.**



Sənədə əsasən, Böyük Britaniya Azərbaycan və Ermənistanla münasibətlərini ticarət, təhlükəsizlik və müdafiə sahələrində strateji tərəfdaşlığa yüksəltmək qərarına gəlib. “Biz Minsk Qrupunun buraxılmasının tərəfdarıyıq. Əldə edilmiş irəliləyiş nəzərə alınmaqla, hesab edirik ki, 1992-ci ildə ATƏT-in silah embarqosu artıq aktual deyil. Böyük Britaniya Ermənistan və Azərbaycana silah embarqosunu tamamilə ləğv edir. Bu, təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafına kömək edəcək və hibrid təhdidlərə cavab olaraq bu ölkələrin suverenliyini və ərazi bütövlüyünü qoruyacaq. İxrac lisenziyaları ciddi meyarlar əsasında ayrı-ayrılıqda nəzərdən keçiriləcək”, - deyə o bildirib.

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov** “Yeni Müsavat”a bildirdi ki, Böyük Britaniyanın silah satışına embarqonu ləğv etməsi müsbət hadisədir və gözlənilirdi: “Bütün dünya, eləcə də Böyük Britaniya Azərbaycanın öz ərazilərini azad edərək regionda yaratdığı yeni reallıqları qəbul edir. Həmçinin dünyanın böyük dövlətlərindən olan Britaniya Azərbaycanla Ermənistan arasında Vaşinqtonda 8 avqustda imzalanmış razılaşmanı, sülh sazişi layihəsinin paraflanmasın alqışlayır, bu addımın sülh sazişinin imzalanması üçün ən ciddi addım olduğunu hesab edir. ABŞ-ın 907-ci düzəlişlə bağlı atdığı məlum addım da məhz 8 avqust Vaşinqton razılaşmalarından sonra baş verdi. Bu baxımdan indi Böyük Britaniyanın Azərbaycana, həmçinin Ermənistana silah satışına qoyduğu embarqonu aradan qaldırması gözlənilirdi. Buna hazırlığın simptomları elə bu ayın 6-da Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auldu və Krallığın ölkəmizdəki hərbi attaşesi 2-ci dərəcəli kapitan Gavin Tarbardı qəbul etməsi və danışıqlar apardığı zaman görünürdü. Müdafiə Nazirliyinin görüş barədə yayığı məlumatda deyilirdi ki, müdafiə naziri Azərbaycanla Böyük Britaniya arasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrin xüsusi əhəmiyyət daşıdığını və bunun hər iki tərəfin ordusunun inkişafına töhfə verəcəyini bildirib. Hərbi sahədə əlaqələr sırasına şübhəsiz ki, bundan sonra Britaniyadan silah alınması, Britaniya hərbi sənayesi ilə Azərbaycan hərbi sənayesinin əlaqələri, əməkdaşlığı kimi məsələlər də daxil ediləcək”.

R.Məhərrəmov vurğuladı ki, silah embarqosunun aradan qaldırılması Azərbaycanın modern ingilis silahlarını əldə etməsinə yol açacaq.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025

# İrəvanda Paşinyanı “yıxmaq” hazırlığı

## Parlament seçkiləri ərəfəsində Rusiyanın həbsdəki adamı hərəkətə keçib; Kremldən idarə olunan revanşistlər nəyə nail ola biləcəklər - ilginc təhlil



**Ermənistanda peşəkarlardan ibarət yeni siyasi qüvvə yenidən “boy göstərib”. Ölkənin Milli Təhlükəsizlik Xidmətinin təcridxanasında saxlanılan Samvel Karapetyanın yaratdığı “Bizim yolumuz” hərəkatı İrəvanda ilk hesabat yığıncağını keçirib.**

Erməni mediası yazır ki, 2026-cı ilin yayında keçiriləcək kritik parlament seçkilərində baş nazir Nikol Paşinyanın partiyasına əsas alternativ kimi ortaya çıxan hərəkata ay yarım ərzində artıq 5 000 könüllü qoşulub. Tədbirdə Samvel Karapetyanın müraciəti oxunub. Karapetyan bildirib ki, “Bizim yolumuz” hərəkatı ictimaiyyətin diqqət mərkəzinə çevrilib. “Bu, sizin nailiyyətinizdir, bizim ortaq nailiyyətimizdir və bu, bütün erməni xalqının nailiyyəti olmalıdır. Mən fəxr edirəm ki, minlərlə ləyaqətli insan bizim hərəkatımıza qoşulub. Mən bilirəm ki, bu, həqiqətən də ümumxalq hərəkatına çevrilmək potensialına malikdir”, - deyə 110 gündən çox həbsdə olan iş adamı bildirib.

Toplantıda çıxış edən hərəkat koordinatoru Narek Karapetyan vurğulayıb ki, hərəkatın tərəfdarlarının sayı bu sürətlə artmaqda davam edərsə, “yaxın aylarda bizim sıramızda on minlər olacaq ki, bu da dəyişikliklərə doğru böyük addımdır”.

Bildirilib ki, “Paşinyan rejimi siyasətdə sistematik passivlik nümayiş etdirir və bu da geosiyasi uğursuzluqlara gətirib çıxarır”. O da iddia olunur ki, iyun ayından həbsdə olan Karapetyanın seçkilərdə iştirak etməsini əngəlləmək üçün planlar qurulub. Belə ki, istintaq əsassız olaraq uzadılır. “Bizim yolumuz” hərəkatının bu həftə İrəvanın Azadlıq meydanında Karapetyana dəstək üçün böyük mitinq keçirəcəyi gözlənilir. İştirakçılar onun azadlığa buraxılmasını tələb edəcəklər.

Hərəkat elan edib ki, onlar Rusiya ilə ənənəvi dostluq münasibətinə sadiq olacaqlar. “Tramp marşrutu”na gəlincə, “Bizim yolumuz” hesab edir ki, illüziyaya qapılmaq yox, hərtərəfli təhlilə ehtiyac var. Hərəkat baş nazirliyə namizədin cəmiyyətin bütün sağlam qüvvələri üçün məqbul fiqur olmasının vacibliyini vurğulayıb. “Robert Köçəryan və ya Serj Sərkisyan kimi köhnə elitanın nümayəndələri ilə birbaşa seçki ittifaqı istisna edilsə də, əməkdaşlıq üçün qapılar açıqdır...

Aydındır ki, Rusiya bölgədə öz imperiya siyasətini davam etdirmək niyyətini reallığa çevirmək cəhdləri göstərir. Paşinyan bunu anlayır və ona görə də Azərbaycan və Türkiyə ilə münasibətlərin nizamlanmasına çalışır. Aydındır ki, indiki hakimiyyətə alternativ göstərilən güclərin hamısı Rusiyanın təsirində olan qüvvələrdir. Ermənistanda kritik seçkilərədək Paşinyan da təsləmlidir.

Görünən budur ki, S.Karapetyan təcridxanadan çöldəki tərəfdarlarına mübarizə əzmi aşılayır, onları səfərbər etməyə çalışır, vəkilləri də milyarder barədə “süddən çıxmış ağ qaşıq” obrazı formalaşdırmağa səy göstərirlər. Heç şübhəsiz, bütün bunlar təsadüfi deyil və vahid mərkəz tərəfindən stimullaşdırılır. Əsas məqsəd Paşinyanı seçkilərdə peşman etməkdir.

Proseslərin perspektiv inkişafı haqda proqnozlar necədir? Kremlin adamı həbsdən qalib olaraq çıxa bilərmi, yoxsa Moskva son anda başqa birisinə “stavka” edib Paşinyana çətinliklər yaşadacaq?

**Deputat Elçin Mirzəbəyli “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Ermənistanın siyasi səhnəsində son aylarda müşahidə olunan proseslər təsadüfi deyil:** “"Bizim yolumuz" adlı yeni hərəkatın qısa zamanda minlərlə tərəfdar toplaması və onu yaradan Karapetyanın siyasi simaya çevrilməsi əslində İrəvanda Paşinyana qarşı növbəti “siyasi dalğa”nın baş qaldırdığını göstərir. Karapetyanın həbsdə olması bu dalğanı dayandırmayıb, əksinə, onu “mübarizə simvolu”na çevirib. Bu, Ermənistanda “Rusiya faktoru”nun yenidən aktivləşməsi və Kremlin regionda öz dayaqlarını möhkəmləndirmək üçün yeni alətlər axtardığının göstəricisidir". **E.Mirzəbəyli qeyd etdi ki, Karapetyanın yaratdığı hərəkatın ilk yığıncağında səslənən tezislər açıq şəkildə Moskvanın mesajlarını xatırladır:** “Rusiya ilə "ənənəvi dostluq", Qərb siyasətinə “illüziyalarla aldanmamaq”, həmçinin “sistemdə dəyişikliklərə ehtiyac” çağırışları Paşinyana birbaşa meydan oxumaqdır. Məsələ təkcə daxili narazılıqda deyil, burada əsas məqsəd Ermənistanı yenidən və tamamilə Rusiyanın strateji orbitinə qaytarmaqdır. Kremlin Ermənistan siyasətindəki planı uzunmüddətli perspektivdə Paşinyanın yerinə tam itaətkar, "Rusiyaya borclu" bir liderin gətirilməsidir. Lakin bunun üçün Moskvanın həm daxili siyasi mühitdə, həm də xarici geosiyasi müstəvidə real dayaqlara ehtiyacı var. Ukrayna müharibəsindəki məğlubiyyət sindromu, Qərbin sanksiya təzyiqləri və Cənubi Qafqazda Azərbaycanın artan nüfuzu Kremlin manevr imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Buna görə də Moskva indi Ermənistanda birbaşa çevriliş ssenarisindən çox, “yumşaq keçid” modeli üzərində işləyir. Yəni ola bilsin ki, Moskvanın Paşinyanı tədricən zəifləDib, onun yerinə “daxili legitimliyə malik” bir fiquru önə çıxarmaq planı aktuallaşır".

**Millət vəkilinin sözlərinə görə, Karapetyanın seçilməsi də təsadüfi deyil:** “O, iqtisadi resurslara, müəyyən ictimai nüfuza və Rusiya biznes dairələri ilə əlaqələrə malikdir. Hərçənd onun hərəkatı hələlik köhnə elita ilə açıq ittifaqdan qaçır, bu, siyasi taktika xarakteri daşıyır. Əsl məqsəd Köçəryan-Sərkisyan orbitindən uzaq, amma mahiyyət etibarilə eyni istiqamətli, "yeni sima" kimi təqdim olunan qüvvəni önə çəkməkdir. Bu, həm Ermənistanda cəmiyyətin Paşinyan sonrası dönəmə psixoloji hazırlığını formalaşdırır, həm də Kremlin maraqları ilə üst-üstə düşür". **Deputat vurğuladı ki, ancaq bu planın qarşısında ciddi baryerlər də var:** “Paşinyanın Qərb və regional tərəfdaşlarla, xüsusilə də Azərbaycan və Türkiyə ilə normallaşma istiqamətində atdığı addımlar Ermənistanın iqtisadi sabitliyinin qorunması və ordunun depolitizasiyası prosesləri oyun sahəsini daraldır. Qərb bu dəfə 2018-ci ildə olduğu kimi passiv müşahidəçi rolu ilə kifayətlənmək niyyətində deyil. Avropa İttifaqı və ABŞ Paşinyan hökumətini, ən azı 2026-cı il seçkilərinədək, qorumağa çalışacaq.

Kremlin qarşısında iki variant qalır: ya Karapetyanı “milli müqavimətin lideri” kimi saxlamaq və onun həbsi fonunda cəmiyyətdə Paşinyana qarşı emosional gərginliyi artırmaq, ya da son anda daha idarəolunan bir fiqura “stavka” edib Karapetyanı siyasi tələyə çevirmək. Rusiya təcrübəsinə baxanda ikinci variant daha real görünür. Çünki Moskva heç vaxt bir fiqura bütün resurslarını xərcləmir, o, daim alternativləri hazır saxlayır. Paşinyan isə zamanla yarışır. O, həm daxili siyasi sabitliyi qorumağa, həm də Ermənistanı Qərb strukturlarına yaxınlaşdırmağa çalışır. Lakin Moskva təzyiqini tam neytrallaşdıra bilməyəcək". E.Mirzəbəyli bildirdi ki, əgər “Bizim yolumuz” kimi hərəkatlar sosial bazasını genişləndirsə, növbəti bir-iki ayda İrəvanda “siyasi dalğa”nın kütləvi formaya keçməsi istisna deyil: “Bu isə 2026-cı il seçkilərinə gedən yolda Paşinyanın qarşısında həm siyasi, həm də təhlükəsizlik baxımından ciddi maneə yarada bilər. Beləliklə, proseslərin gedişi göstərir ki, Ermənistan növbəti iki ildə Paşinyan və Moskva arasında açıq siyasi toqquşmaya şahidlik edə bilər”. **Kremlin adamı həbsdən qalib çıxa bilərmi? E.Mirzəbəyli:** “Qısamüddətli perspektivdə bu, çətin görünür. Amma Moskva üçün əsas məsələ Karapetyanın azadlığı deyil, onun simasında cəmiyyətə "Paşinyandan başqa alternativ var" fikrini yeritməkdir. Əgər Paşinyan üzərinə düşən öhdəlikləri yerinə yetirərək regional barış gündəmini sürətləndirə və Ermənistanın iqtisadi dirçəlişini təmin edə bilsə, bu, Moskvanın ssenarisini iflasa uğrada bilər”.

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**



## Bakı Moskvadan hansı addımları gözləyir?

**Azərbaycan və Rusiya münasibətləri hazırda yeni mərhələyə qədəm qoyur və bu münasibətlər praqmatik əsasda yenidən formalaşdırılır. Hazırda əsas məqsəd iki ölkə arasında əməkdaşlığın qarşılıqlı hörmət və bərabərlik prinsipləri əsasında davam etdirilməsidir.**

Bu sözləri Axar.az-a açıqlamasında **politoloq İlqar Vəlizadə** iki ölkə liderinin 9 oktyabrda Düşənbədə görüşünü şərh edərkən deyib.

Politoloqun sözlərinə görə, AZAL təyyarəsinin qəzası ilə bağlı bütün məsələlər hələ tam həllini tapmayıb: “Biz həm kompensasiyanın ödənilməsini, həm də bu cinayətdə məsuliyyət daşıyan şəxslərin cəzalandırılmasını gözləyirik və yaxın aylarda bunun baş verəcəyinə ümid edirik.

Digər tərəfdən, Rusiyada azərbaycanlılara qarşı təzyiqlərin azalacağını və bu kimi halların tamamilə aradan qalxacağını gözləyirik. Həmçinin Rusiyanın bəzi informasiya vasitələrində aparılan anti-Azərbaycan təbliğatına son qoyulacağı da gözləntilər içərisindədir.

Hazırda bütün bunlarla bağlı vəziyyəti izləyirik. Bununla belə, qeyd etmək lazımdır ki, tərəflər münasibətlərin yeni mərhələsinə qədəm qoyur".

Ekspert bildirib ki, təhlükəsizlik məsələləri bu münasibətlərin əsas prioritetlərindəndir.

Vəlizadə qeyd edib ki, iqtisadi əməkdaşlıq və birgə layihələr iki ölkə münasibətlərinin mühüm dayağıdır: "“Şimal-Cənub” layihəsi, enerji və logistika sahəsində həyata keçirilən təşəbbüslər təkcə Azərbaycan və Rusiya üçün deyil, bütün region üçün strateji əhəmiyyət daşıyır.

Bu gün Azərbaycan-Rusiya əlaqələri artıq regional təhlükəsizliyin təminində əsas strateji amil kimi çıxış edir və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq gələcəkdə daha da dərinləşəcək".

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025

# “Türk Şengeni”nin təsisi yaxınlaşır

## Ərdoğanın qərarı digər türk dövlətləri üçün nümunə ola bilər

**Xəbər verildiyi kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mühüm qərar imzalayıb. Qərara əsasən, artıq türk soylular, yəni Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şərqi Türküstan, Ahıska, Krım və Qaqauz icmalarından olan şəxslər Türkiyədə öz peşə və sənətlərini sərbəst şəkildə icra edə biləcəklər.**

Bu dəyişiklik onlara həm dövlət, həm də özəl sektorda daha asan işləmək imkanı yaradır. Türk soylular üçün iş icazəsi və yaşayış icazəsi prosedurları sadələşdirilir, onlar artıq Türkiyədə “əcnəbi” sayılmayacaq, öz vətənlərindəki kimi yaşayıb, fəaliyyət göstərə biləcəklər.

Belə ki, bu qərar Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində iqtisadi və sosial inteqrasiyanı gücləndirəcək. Bu addım “Türk Şengeni” kimi vahid viza və əmək sistemi üçün ilkin model sayıla bilərmi?

**İqtisadçı ekspert Natiq Cəfərli** “Yeni Müsavat”a bildirdi ki, Türkiyə Prezidentinin bu qərarı təqdirəlayiqdir və Türk Dövlətləri Təşkilatı, ümumiyyətlə, Türk dünyası üçün çox önəmlidir: “Amma bunu hələ ki "türk şengeni" də adlandırmaq lazım deyil. Çünki türk dövlətləri arasında onsuz da viza rejimi yoxdur. Yeni Azərbaycanla Türkiyə arasında yoxdur, Türkiyə ilə, Azərbaycanla Orta Asiya respublikaları arasında viza rejimi mövcud deyil. Bu, daha çox başqa bölgələrdə, məsələn, Çində yaşayan uyğur türklərin və başqa ölkələrdə yaşayan türk soylu insanlara daha çox müsbət təsirini göstərəcək. Amma ümumilikdə Türk dünyasının bir kadr potensialının yaranması, inteqrasiyası, işçi qüvvəsinin inteqrasiyasının daha rahat həyata keçirilməsi üçün kifayət qədər ciddi və uğurlu bir gedişdir. Ümumiyyətlə, Türk Dövlətləri Təşkilatının gələcək inkişafı üçün onun siyasi, iqtisadi elitası formalaşmalıdır. Bu elitanın formalaşması TDT-nin gələcəyində mühüm rol oynayacaq. Türkiyənin bu qərarı həmin elitanın formalaşması üçün atılmış ilk addımlardan biridir".

**Siyasi ekspert Xəyal Bəşirov isə bildirdi ki, Türkiyə Prezidenti tərəfindən belə bir qərarın qəbul edilməsi əslində Türk dünyasının birləşməsi, Turan coğrafiyasının daha da inteqrasiya olunub təşəkkül tapması baxımından önəmli addımdır:** “Çünki bu gün biz bir reallığı qəbul etməliyik ki, Türk dünyasında hələlik bütün istiqamətlərdə - iqtisadi baxımdan, eyni regional baxımdan, digər mühüm istiqamətlər üzrə ən ciddi şəkildə inkişaf edəyən dövlət Türkiyədir. Türkiyə bu meyarlara görə daha öndə gedir. İnsanların Türkiyəyə can atması normaldır. Türkiyə Avropa coğrafiyasında yerləşir və tarixi böyük ərazilərə sahibdir. Turizm baxımından, iş tapmaq baxımından və digər məqamlarla bağlı Türkiyə hər kəsin üz tutduğu əsas ölkələrdən biridir. Ona görə də Türkiyə cəlbedicidir. Xüsusilə də türk dövlətlərinin vətəndaşları üçün qardaş ölkə kimi Türkiyə çox cəlbedicidir. Prezident Ərdoğanın verdiyi sözügedən qərar TDT üzvü olan ölkələrin vətəndaşlarının qardaş ölkəyə daha çox gediş-gəlişinə, orada fəaliyyətinə daha geniş şərait yaranmasına təkan verəcək. Bu qərar həm də TDT-nin daha da inkişafına, daha monolit, daha effektli ittifaq olmasına gətirib çıxaracaq. Eyni zamanda bu, TDT-yə üzv olan subyektlərin sayını artıracaq. Gələcəkdə TDT-nin üzvü olan digər dövlətlər də Türkiyə nümunəsini tətbiq edə biləcəklər. Beləliklə, TDT üzvü olan ölkələrin vətəndaşları faktiki olaraq bu ittifaqa daxil bütün ölkələrin ərazisində rahat şəkildə iş qurmaq, fəaliyyət göstərmək imkanları əldə etmiş olacaqlar. TDT-nin türk xalqlarının nəzərində nüfuzu daha da artacaq. İnvestisiyaların yatırılması baxımından da əlavə imkanlara yol açılacaq. Prezident Ərdoğanın qərarı Şengen vizasına bənzər bir eksperiment, bir addım kimi özünü doğruldacaq. Hər bir halda türk coğrafiyasının inteqrasiyasında bu cür qərarlar çox müsbət töhfə verəcək. Cənab Ərdoğanın imzaladığı qərarın tezliklə həyata keçirilməsi istiqamətində addımlar atılmalıdır. Növbəti mərhələlərdə isə digər türk dövlətləri analoji addımları atmalıdır”.




❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Əlvida, pasport möhürü...

## İndi Şengen ölkələri Aİ-yə daxil olan bütün şəxslər haqqında məlumat mübadiləsi aparacaq və eyni məlumatlara çıxış əldə edəcək

**29 Avropa ölkəsinin xarici sərhədlərini keçmək üçün yeni qaydalar Avropa İttifaqı (Aİ) ilə vizasız rejimin olub-olmamasından asılı olmayaraq, Aİ-dən kənar ölkələrin vətəndaşları üçün 2025-ci il oktyabrın 12-dən qüvvəyə minib. Bu barədə Ayna.az yazır. Bildirilir ki, Şengen ölkələri Elektron Giriş-Çıxış Sistemini (EES) tətbiq edib. Bu sistem üçüncü ölkə vətəndaşlarının beynəlxalq hava limanlarında, qatar stansiyalarında, yol sərhədi keçidlərində və dəniz limanlarında giriş və çıxış zamanı biometrik məlumatlarını toplayacaq və yoxlayacaq.**




Məlumata görə, Aİ-nin daxili işlər və miqrasiya üzrə komissarı Maqnus Brunner bazar günü dərc olunmuş bəyanatında “EES yeni ümumi Avropa miqrasiya və sığınacaq sistemimizin rəqəmsal əsasını təşkil edir”, - deyə bildirib. Bəyanatda vurğulanıb ki, qüvvəyə minmiş yeni qaydalar viza müddətindən artıq qalanları izləmək üçün nəzərdə tutulub və şəxsiyyət saxtakarlığı ilə mübarizə və qeyri-qanuni miqrasiyanın qarşısını almaq məqsədi daşıyır.

EES 180 günlük müddət ərzində 90 günə qədər qısa müddətdə Şengen ölkələrinə gələn üçüncü ölkə vətəndaşlarının məlumatlarını elektron şəkildə qeyd edəcək. Bu qayda Şengen zonasında yaşamaq icazəsi olan üçüncü ölkə vətəndaşlarına şamil edilməyəcək.

Aİ ölkələrinin rezidentləri və vətəndaşları, habelə uzunmüddətli Şengen vizası sahibləri üçün ayrıca növbələr yaradılacaq, burada onlardan viza və ya yaşayış icazəsi, pasport təqdim etmələri tələb olunacaq.

Yeni sistemlə ilk dəfə ələqə saxladığınız zaman sizdən fotoşəkil çəkdirmək və barmaq izlərini götürmək tələb olunacaq. Bu, pasport məlumatlarınızı da ehtiva edən rəqəmsal qeyd yaradacaq. Şengen zonası sərhədini sonrakı keçidlər zamanı biometrik məlumatlarınız bu qeydlə təsdiqlənəcək. 12 yaşdan kiçik uşaqların barmaq izlərini təqdim etməsinə ehtiyac yoxdur.

Uşaqlar ya xüsusi EES terminallarında, ya da pasport məlumatlarını skan edən və sərnişinlərin biometrik məlumatlarını toplayan sərhəd-keçid məntəqələrində qeydiyyatdan keçməlidirlər. Maşınlardan yalnız biometrik pasport sahibləri istifadə edə biləcək.

Bütün sərhəd-keçid məntəqələri dərhal yeni sistemə keçməyəcək. EES-in tətbiqi mərhələli olacaq: 2026-cı il aprelin 10-dək onun bütün buraxılış məntəqələrində tam tətbiq edilməsi, pasport ştamplarının məlumat bazasında elektron qeydlərlə əvəzlənməsi nəzərdə tutulur.

Hələlik Avropa səlahiyyətliləri bu sistemdən hansı sərhəd keçidlərində və nə vaxt istifadə etməyə başlamağa qərar verə biləcəklər. Keçid dövrü sərhədçilərə, nəqliyyat işçilərinə və səyahətçilərə yeni prosedurlara uyğunlaşmaq üçün vaxt verməlidir.

İlk altı ayda standart analoq pasportun yoxlanılması və möhürlənmə prosedurunun adi qaydada davam edəcəyi gözlənilir, lakin sərnişinlərdən paralel olaraq biometrik məlumatların təqdim edilməsi də tələb oluna bilər. Sərhədçilər yalnız sistem tam işə düşənə qədər pasportlara möhür vura biləcəklər.

EES sisteminin məqsədi sərhəd nəzarətini sürətləndirmək və onu daha səmərəli etməkdir. Avropa Komissiyası vəd edir ki, biometrik və pasport məlumatları Şengen zonasına ilkin giriş və çıxış zamanı qeydə alınacağından, hər bir sonrakı giriş və çıxış yalnız çox sürətli yoxlama tələb edəcək, çünki məlumatlar artıq sistemdə olacaq. Komissiya əmin edir ki, yeni sistem hər kəs üçün səyahətləri daha təhlükəsiz, sadə və sürətli edəcək.

Avropa Komissiyasının sözçüsü Markus Lammert bildirib ki, EES təkcə sərnişinlər üçün səyahəti asanlaşdırmayacaq, həm də Aİ-yə vizasız ölkələrin vətəndaşları da daxil olmaqla, sui-istifadə ilə mübarizə aparmağa kömək edəcək.

180 gün ərzində Şengen zonasında artıq 90 gün qalmış şəxs yenidən daxil olmağa cəhd edərsə, sərhəddə girişdən imtina ediləcək. Bundan əlavə, girişdən imtina barədə məlumatlar EES-də qeyd ediləcək və ya fiziki şəxs EES-də qeydiyyatdan keçmək üçün uyğun deyilsə, onun pasportuna girişdən imtina möhürü vurulacaq.

“Yeni rəqəmsal sistem sərhəd keçidləri ilə bağlı etibarlı məlumatları təmin edəcək və sistematik olaraq müddətdən artıq qalan şəxsləri, habelə sənəd saxtakarlığı və şəxsiyyət oğurluğu hallarını müəyyən edəcək”, - Lammert Brüsseldə keçirdiyi brifinqdə bildirib.

İndi bütün səyahət məlumatları ümumavropa məlumat bazasında saxlanılacaq və bu, səlahiyyətlilərə Şengen zonası daxilindəki ölkələr arasında əcnəbilərin hərəkətini daha effektiv şəkildə izləməyə imkan verəcək.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2024

# Azərbaycandan Hindistana gözlənilməz jest

## Rəsmi Bakı bir daha öz böyüklüyünü dünyaya nümayiş etdirdi; Yeni Dehli bunu necə qiymətləndirəcək?




**Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) hazırkı sədri olan Azərbaycan Hindistanın 2026-cı ildə foruma ev sahibliyi etmək xahişini dəstəkləyib. Son on ildə foruma ənənəvi olaraq Çin sədrlik edir. “Economic Times”ın öyrəndiyi kimi, Bakı hazırkı sədr kimi Hindistan üçün bir ilk olan foruma ev sahibliyi etmək istəyində bu ölkəni dəstəkləməyə razılaşıb.**

Hindistan Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Hindistan Dünya İşləri Şurasının (ICWA) himayəsi altında foruma ev sahibliyi edəcək.

AQEM-in çağırılması haqqında təşəbbüs ilk dəfə 5 oktyabr 1992-ci ildə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən BMT Baş Assambleyasının 47-ci sessiyası zamanı irəli sürülüb. Bu təşəbbüsün irəli sürülməsində əsas məqsəd Asiyada sülh və təhlükəsizliyin təmin olunması üzrə effektiv və universal təşkilat təsis etmək olub.

Hazırda 28 üzvü olan AQEM-in fəaliyyətini tənzimləyən əsas sənədlər 1999-cu ildə qəbul edilmiş “AQEM üzv dövlətləri arasında münasibətlərin rəhbər prinsipləri haqqında Bəyannamə” və 2002-ci ildə qəbul edilmiş “Almatı Aktı”dır. Müşavirənin inzibati orqanı Astana şəhərində yerləşən Katiblikdir. AQEM-in əsas qərar qəbul etmə orqanları Dövlət və Hökumət Başçılarının Şurası və Xarici İşlər Nazirləri Şurasıdır.

AQEM Nazirlər Şurasının 19 mart 2024-cü il tarixli qərarı ilə 2024-2026-cı illər üzrə Müşavirəyə sədrlik ölkəmizə keçib. AQEM-ə sədrlik çərçivəsində AQEM-in Biznes Şurasına və Gənclər Şurasına sədrliyin də həmin dövr üçün Azərbaycan tərəfindən həyata keçirilməsi nəzərdə tutulub.

Yada salaq ki, ötən ay Hindistanın Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzvlük müraciətini yenidən blokladığı haqda xəbər yayılmışdı.

Bildirilirdi ki, Çin Azərbaycanın ŞƏT-ə üzvlüyünü dəstəkləsə də, Hindistan yenidən Bakının tamhüquqlu üzvlük təklifini bloklayıb. Bu ölkənin Xarici İşlər Nazirliyinin sözçüsü Randhir Caysvalın guya rəsmi Dehlinin Azərbaycanın ŞƏT-ə üzvlüyünü əngəlləmədiyi haqda açıqlama vermişdi. Mənbələrin fikrincə, Hindistanın bu addımı Azərbaycan və Pakistanın sıx əlaqələri ilə bağlıdır, çoxtərəfli diplomatiya prinsiplərinə və “Şanxay ruhu”na ziddir, həmçinin Hindistanın məhdud yanaşmasını nümayiş etdirir.

Azərbaycan çoxtərəfli diplomatiya prinsiplərinə sadiq qalaraq Hindistanın BMT Baş Assambleyasına təqdim etdiyi qətnamələrin qəbuluna mane olmayıb və bu prinsipi pozmayıb. Amma XİN vəd vermişdi ki, Dehlinin bu ucuz və düşmənçi mövqeyinə cavab olaraq bundan sonra Hindistanın təqdim etdiyi qətnamələrə eyni yanaşma olmayacaq. Amma belə görünür ki, diplomatik düşərgələrdə hansısa qarşılıqlı təmaslar var.

Hindistan 44 günlük müharibədən sonra Ermənistana raketlər, artilleriya qurğuları, raket sistemləri, radarlar, zirehlər və gecəgörmə cihazları, eləcə də geniş çeşiddə sursat və artilleriya mərmilərini idxal etdiyi üçün Bakı ilə münasibətləri korlayıb. Prezident İlham Əliyev ölkəmizin Pakistana göstərdiyi dəstəyə cavab olaraq Hindistanın beynəlxalq təşkilatlarda Azərbaycandan qisas almağa çalışdığını deyib. Bunun ölkəmiz üçün heç bir əhəmiyyət daşımadığını vurğulayan dövlət başçısı qeyd edib ki, Azərbaycan üçün Pakistanla qardaşlıq münasibətləri hər şeydən üstündür. Bəs Bakının bu jestini necə qiymətləndirmək olar, pərdəarxası hansısa danışıqlar ehtimalı varmı?

**Sabiq maliyyə naziri, professor, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov “Yeni Müsavat”a dedi ki, son illər ərzində Azərbaycanın beynəlxalq siyasi müstəvidə atdığı addımlar ona böyük uğur qazandırıb:** “Diplomatiyamızın uğurları getdikcə daha da böyüyür. Baxın, bu gün Azərbaycan dünyanın iki nəhəngi - ABŞ və Çinlə hansı münasibətlər qurub və onları necə inkişaf etdirir? Avropa İttifaqı 44 günlük müharibə və bir günlük antiterror əməliyyatından sonra başda Fransa olmaqla, Azərbaycana qarşı basqılar etməyə qalxsa da, sonda Azərbaycan diplomatiyasının uğurları qarşısında geriyə addım atmaq məcburiyyətində qaldı. Bu gün Azərbaycanın Hindistanla münasibətlərində müsbət hər hansı məqamlar qeydə alınırsa, bu o deməkdir ki, Azərbaycan özünün xarici siyasət strategiyasına sadiqdir və o, hər bir ölkə ilə normal, sağlam əməkdaşlığa söykənən münasibətlər qurmaq yolundadır. Hindistanla Azərbaycan arasında yaranmış gərginliyin kökləri bəllidir. Ortada qardaş Pakistan amili var. Ancaq bu o demək deyil ki, biz Hindistanla düşmən münasibətdə qalmalı və onu davam etdirməliyik. Dünyanın düzəni indi əsaslı şəkildə dəyişir. Yaxın Şərqdə ABŞ başda olmaqla, sülhün yaradılması istiqamətində dünya gücləri tərəfindən atılan addımlar dünya düzəninin dəyişməsinin bir nümunəsidir. Yeni reallıqlar dövlətləri münaqişələrə, düşmənçiliyə deyil, sülhə, əməkdaşlığa çağırır. Azərbaycan da məhz bu prizmadan çıxış edir. Əgər biz otuz il torpaqlarımızı işğal altında saxlayan Ermənistanla sülhə gələ biliriksə, nədən Hindistanla sağlam münasibətlər yaratmaq haqqında düşünməyək? Odur ki, bu yolda atdığımız addımları müsbət dəyərləndirirəm. Hesab edirəm ki, bu gün iqtisadiyyatı üstün sürətlə inkişaf edən Asiya qitəsinin sayılı dövlətlərindən biri olan Hindistanla münasibətlərin normallaşdırılması hər iki tərəfə fayda gətirəcək”.

**Milli Məclisin deputatı Azər Badamov Azərbaycanın bir daha böyüklük nümayiş etdirdiyini önə çəkdi:** “Dövlətlərin böyüklüyü, nüfuzu və sözün gücü onun ərazisi və əhalisi ilə ölçülmür. O dövlətlər güclüdür ki, onun güclü və uzaqgörən diplomatik siyasəti var. Bu baxımdan dünya siyasətində Azərbaycan Prezident İlham Əliyevin liderliyi sayəsində əhali və ərazicə bizdən dəfələrlə böyük dövlətlərdən daha böyük görünür. O cümlədən bu gün Azərbaycan dünyanın siyasi kursunun müəyyən edilməsində iştirak edən və istiqamət verməyə imkanında olan dövlətə çevrilib. Həm də yürütdüyümüz beynəlxalq siyasət heç kimin diktəsi ilə müəyyən olunmur və heç kimə qarşı deyil. Bu baxımdan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) hazırkı sədri olan Azərbaycan Hindistanın 2026-cı ildə foruma ev sahibliyi etmək xahişini dəstəkləməsi də böyüklüyümüzdür. Həm də bir misal var, "yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir". Hindistan Çinin irəli sürdüyü ŞƏT+ formatına ölkəmizin üzvlüyünə qəbul olunmasını blokladı. Amma Azərbaycan AQEM-lə bağlı özünün jesti ilə Hindistanı utandırır. Bəli, bizim heç kimdən qisas almaq və ya kin çəkmək fikrimiz yoxdur. Azərbaycan qarşılıqlı hörmət və fayda əsasında bütün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməyə hər zaman hazırdır. Həm də kimlərinsə maraqlarına görə dostları ilə münasibətlərini dayandırmağı heç vaxt düşünmür. Ölkəmiz hətta bir-biri ilə düşmən ölkələrlə də dostluq və əməkdaşlıq etməklə barışın əldə olunmasına töhfələr verir. Hindistan Pakistanla dostluğumuza görə ölkəmizin ŞƏT+ formatına üzv olmağını dayandırmamalı idi. Əksinə, bu quruma üzv olmağımızdan istifadə edərək Pakistanla münasibətlərin normallaşdırılması üçün ölkəmizin səylərindən istifadə etməli idi. Onda Hindistanın doğru siyasət yürütdüyünü görərdik. Amma Hindistanın ölkəmizə qarşı etdiyi hərəkətə təəssüf edirik və bu əmələ görə adekvat cavab yox, onları düşündürən jest edirik. Bu bizim beynəlxalq siyasətdə əsas üstünlüyümüzdür".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**




## “Putin müharibənin başa çatdığını elan etsə...”

### Gizli sorğunun gözlənilməz nəticələri

**“Rusiya bütün Donbası ələ keçirmədən danışıqlara getsə, bunu xalq başa düşməz” iddiaları doğru deyil". Teleqraf xəbər verir ki, bunu ukraynalı sosioloq, Rusiya Münaqişə və Təhlil İnstitutunun rəhbəri Oleksandr Şulqa bildirib.**

Onun sözlərinə görə, həmkarları müharibə dövründə ildə bir neçə dəfə Rusiya sakinləri ilə telefon sorğuları keçiriblər. Respondentlər söhbətin ukraynalılar tərəfindən aparıldığını bilməyiblər. Bu danışıqların təhlili müəyyən nəticələr ortaya qoyub.

Sosioloq qeyd edib ki, rusiyalılar Ukrayna ilə müharibənin işğal xarakterli olduğunu anlayırlar, amma onu qazanc əldə etməyin bir forması kimi görürlər: “Rusiyada bizi öldürməyə və özləri ölməyə könüllü gedəcək milyonlarla fanatik yoxdur. Bu, bizim üçün yaxşı xəbərdir. Amma pis xəbər odur ki, onlarda heç bir mənəvi maneə yoxdur, müharibənin qəddarlığı və ədalətsizliyi barədə düşünmürlər”.

Şulqanın fikrincə, rus cəmiyyəti baş verənlərdən heç bir dərs çıxarmayacaq, hətta Vladimir Putinin hakimiyyətdən getməsi də bunu dəyişdirməyəcək.

Oleksandr Şulqa iddia edib ki, 2023-cü ilin ortalarından etibarən ruslar müharibəni gündəlik həyatın bir hissəsinə çeviriblər: “Bu, pis əlamətdir. Ruslar yeni şəraitə uyğunlaşmağı, problemi görməməzliyə vurmağı və onunla yaşamağı öyrəniblər”.

Onun fikrincə, bu vəziyyət uzunmüddətli perspektivdə Kremlə inam verir ki, oxşar təcavüzləri təkcə Ukraynaya qarşı deyil, başqa ölkələrə qarşı da təkrarlaya bilər.

Şulqa əlavə edib ki, son illərdə Rusiya cəmiyyətində seqmentləşmə daha aydın hiss olunur: “Gənclər müharibədə iştirak etmək istəmirlər - nə pulsuz, nə də pul müqabilində”.

**Sosioloqun bir başqa iddiasına görə, rusiyalıların əksəriyyəti müharibənin indiki xətdə və dərhal başa çatmasına hazırdır:** “Belə bir fikir var ki, guya ruslar Putinin bütün Donbas və ya Zaporojyeni tutmadan danışıqlara getməsini qəbul etməzlər, doğru deyil. Ruslar onsuz da başa düşmürlər ki, onlara Donbas nəyə lazımdır”.

Sorğular zamanı respondentlərə “Əgər Putin sabah xüsusi hərbi əməliyyatın başa çatdığını elan etsə, siz bu qərarı dəstəkləyərdinizmi” sualı verilib, əksəriyyət “bəli” deyib.

Bundan əlavə, “Sizcə, Rusiya öz məqsədlərinə çatıb” sualına cavab olaraq respondentlərin yarıdan çoxu “qismən çatıb”, yalnız 5 faizi “tam çatıb” söyləyib.

“Amma buna baxmayaraq, onların əksəriyyəti müharibənin elə bu gün bitməsini istəyir. Ruslar müharibənin bitməsini arzulayırlar və Kremlin "qələbə" kimi təqdim etdiyi istənilən versiyanı qəbul etməyə hazırdırlar", - Şulqa vurğulayıb.

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025



# Fraksiya böhranı

Zamin HACI
zaminhaci@gmail.com

**Orta Doğu üzrə barış konfransı başımızı elə qatdı ki, Milli Məclisdə gedən tektonik-geopolitik prosesləri diqqətdə saxlaya bilmədik. İlk növbədə Ədalət, Haqq, Hüquq, İnsaf, Vicdan, Mərifət Partiyasının parlament fraksiyasındakı parçalanmanı nəzərə almalıyıq. Yəqin bu hadisə gələcək koalisyon hökumətlərimizə sarsıdıcı təsir göstərəcəkdir. Bir az ətraflı yazım, vacibdir. Nə qədər Baboş, Tolik kimi bekar mövzularla maraqlanacaqsınız? Müdriklər yaxşı deyibdir: sən siyasətlə maraqlanmasan, siyasət səninlə maraqlanar. Əbu Turxanın da bu temada yaxşı afyorizmi vardır: "Əgər yarpaqlar saralıbsa, deməli, oktyabr ayıdır". Qayıdaq mövzuya, yoxsa o da belə getsə xəzanın altında qalıb məhv olacaqdır. Şair necə deyib? "Müəzzin naləsin alma qulağə, düşmə təşvişə, Cəhənnəm qapısın açdırma, vaizdən xəbər sorma".**

Bəli. Ərz etdiyim kimi, bugünlərdə Milli Məclisdəki Ədalət, Hüquq, Demokratiya Partiyasının (qısaltması son hadisəyə qədər ƏHD alınırdı, indi naməlumdur) 2 üzvündən birini - Elçin Mirzəbəylini partiyadan xaric etmişlər.

Parlament müxalifətimiz üçün ciddi itkidir. İndən belə ƏHD hansısa qanun layihəsinə səs verəndə yetərsay alınmayacaq. Bu, parlamentarizm tariximiz üçün ciddi təhlükə doğurur. Bəs burada əhdə sədaqət hanı? Niyə belə eliyirsiniz, hıy, şərurlu İsfəndiyar demişkən?

Sözgəlişi, sevindirici haldır ki, belə fraksiya böhranı REAL partiyamızı gözləmir, çünki onu MM-də yalnız 1 deputat təmsil edir: Erkin Qədirli. Əgər Erkin müəllim, Allah eləməsin, meyoz üsulla, ya da amöblər kimi yarıya bölünsə, bəlkə o zaman fraksiya parçalanacaqdır.

Digər tərəfdən, parlamentin iqtidar üzvlərindən ağsaqqal YAP-çı Səyyad müəllimin davranışları xalqımızda və seçicilərdə təşviş doğurur. Məsələn, bir gün spikerə deyir ki, mənə söz ver, danışım. Dəhşətdir. Özünü deputat kimi aparır. Başqa vaxt intervüsündə bildirir ki, bəzi nazirlər mənim 8 dəfə zəngimə cavab vermir, kəndə körpü çəkdirməliydim, yarımçıq qalıb, seçicilərinə isə "başınıza dönüm, qadanızı alım" deyə müraciət edirmiş.

Bax, bizə belə deputatlar lazımdırmı? Ola bilər. Ancaq millət də belə danışan deputatları hoydu-hoyduya götürürmüş, Səyyad müəllim deyir ta danışmaq istəmirəm. Bəs onda naziri niyə qınayırsan? O da deputatla danışanda xərcə düşür da bə.

Yəni, hardan baxırsan bax, istəyirsən "turbinadan", istəyirsən qara camaatın arasından - paradoksla üz-üzəyik. Bunu da şair vaxtilə yaxşı təsvir eləmişdir: "Eşqin meyin bu nazlının əlindən, İçsəm öldürərlər, içməsəm ölləm. Səlvi sənubər tək incə belindən Qucsam öldürərlər, qucmasam ölləm".

Hər bir halda, xalq danışan deputatları yadda saxlayır, onların yeri görünür. Məsələn, biz Binəqədi sakinləri rəhmətlik deputatımız Hacı Madərin alovlu çıxışlarından ötrü qəribsəmişik. İnsan hər gün Milli Məclisdə danışardı. Səmimi etiraf etmək istəyirəm, mən indi də hərdən MM-dən canlı yayımlara, qanun müzakirələrinə, kəskin diskussiyalara, diskurslara və ekskursiyalara baxanda, dinləyəndə mənə elə gəlir Madər müəllimin doğma səsini eşidirəm.

Deputat Ramil müəllim isə mandatından imtina edibdir, çünki onu Türk Dünyası Parlament Assambleyasında (ya da buna oxşar nəsə adı var, inşallah, az qalıb, Turanı qururuq, ondan sonra qalır Ərgənəkon) baş katib işləməyə göndəriblər. Əlbəttə, bu da vacib vəzifədi, ancaq bəs onun seçicilərinin taleyi necə olacaq? Ramil müəllimin dairəsində körpüyə ehtiyac yoxdurmu?

İnşallah, tezliklə həmin dairədə yeni seçki olar. Bizdə adətən mandatsız, deputatsız qalmış dairələrə dərhal yeni seçkilər keçirilir. Bəzən bu hadisə elə sürətlə baş verir ki, hansısa dairədən 3-4 deputatımız olur.

Son anda aldığım ilginc xəbərə görə, Səyyad müəllim həmin məmura 9-cu dəfə zəng eləmişdir, hələlik nəticələr haqqında ətraflı məlumatımız yoxdur, Zaporojye yaxınlığında qızğın döyüşlər gedir.



# Lavrov Xəzəryanı dövlətlərin səfirlərini niyə topladı?

## Baltik gölündə və Qara dənizdə strateji itkiləri olan Rusiyanın tez-tez Xəzər mövzusuna qayıtmasının bir səbəbi var - o da...

**Oktyabrın 13-də Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrov dörd Xəzəryanı dövlətin diplomatik missiyalarının rəhbərləri ilə görüş keçirib. İclasda Azərbaycanı səfir Rəhman Mustafayev təmsil edib. Xəzər regionunda çoxşaxəli əməkdaşlıq və "beşlik" çərçivəsində qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi, o cümlədən Xəzəryanı dövlətlər arasında sammitə və yüksək səviyyəli görüşlərə hazırlıqla bağlı geniş spektrli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

Yada salaq ki, ötən həftə Azərbaycan, İran, Rusiya və Qazaxıstan Hərbi Dəniz Qüvvələri Xəzər dənizində təhlükəsizliyin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə strateji əməkdaşlıq sazişi imzalayıb. Bu müqavilənin müddəalarına görə, heç bir xarici dövlətin və ya qeyri-regional dövlətin Xəzər dənizinin daxili işlərinə qarışmaq hüququ olmayacaq. Vurğulanır ki, Xəzər dənizinin təhlükəsizliyini yalnız Xəzəryanı dövlətlər özləri təmin etməlidir.

2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində 5 Xəzəryanı dövlətin - Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistanın iştirakı ilə Xəzər dənizinin statusu haqqında konvensiya imzalandı. Konvensiyada təhlükəsizlik məsələlərinə də toxunularaq Xəzər dənizində tərəflərə məxsus olmayan silahlı qüvvələrin mövcud olmaması, tərəflərdən hər hansının əleyhinə təcavüz və digər hərbi fəaliyyətin həyata keçirilməsi üçün hər hansı bir tərəfin öz ərazisini digər dövlətlərə verməməsi kimi prinsiplər, həmçinin tərəflərə məxsus gəmilərin (mülki və hərbi) ərazi sularından keçidi, daxili sulara daxil olması və tərk etməsi şərtləri də göstərilib. "Xəzər beşliyi" adlanan və aralarında Azərbaycanın da olduğu ölkələrin su sərhədlərini müəyyənləşdirən bu Konvensiya barədə müxtəlif fikirlər mövcuddur. Bəziləri imzalanan sazişin yalnız Rusiyanın lehinə olduğunu, digər ölkələrin isə güzəştə getdiyini önə sürürlər. Azərbaycanın rəsmi orqanları isə Xəzərin statusunda böyük nailiyyətlər qazandığını iddia edirlər.

Dünyada təsbit olunmuş neft ehtiyatlarının 6%, təbii qazın isə 8%-ni özündə cəmləşdirən bu göl həm də balıqçılığı ilə böyük şöhrət qazanıb. Dünya kürü ehtiyacının 90%-ə yaxını Xəzərdə istehsal olunur. Bu qədər iqtisadi önəmə sahib olan su hövzəsinin hansı ölkə tərəfindən necə istifadə ediləcəyi təkcə region dövlətlərini deyil, həm də qlobal güc mərkəzlərini də yaxından maraqlandırır. Üstəlik, Xəzər dənizi Çin və Avropa arasında qurulan İpək yolu marşrutunun da mühüm keçid nöqtələrindəndir.

İndi yenidən tərəflərin belə bir sənəd imzalaması haqlı suallar doğurub. Lavrovun isə dörd Xəzəryanı dövlətin diplomatik missiyalarının rəhbərləri ilə görüşmək zərurəti ortaya çıxıb. Rusiyanın Xəzəryanı ölkələrə xüsusi diqqətin səbəbi nədir?

**Deputat Arzuxan Əlizadə qeyd etdi ki, Lavrov növbəti illik görüş keçirib və hər il belə toplantılar olur. Onun sözlərinə görə, xarici işlər nazirləri səviyyəsində görüşlər olur, bu dəfə isə səfirlər səviyyəsində danışıqlar aparılıb:** "Görünür ki, Rusiya Xəzər dənizinə ciddi əhəmiyyət verir və su sərhədi olan ölkələrlə əməkdaşlıqda özünü maraqlı göstərir. Əslində isə Rusiya fikirləşir ki, Xəzəryanı ölkələrlə gərginliyi olarsa, Cənubi Qafqaza və Orta Asiyaya təsirləri azala bilər. Ona görə hələ iki il əvvəl Lavrov Xəzər Şurasının yaradılmasını təklif etmişdi. Bu ad altında təşkilat yaranardısa, nizamnamə gündəmə gələcəkdi və burada Rusiya dominant olacaqdı. Amma müharibə ardıcıl şəkildə Rusiyanın strateji itkilərinə səbəb olur. Yəni hətta Xəzərdə əvvəlki mövqeyə sahib deyil. Qara dənizdə də gücü o səviyyədə deyil. Bu səbəbdən Xəzər hövzəsi ölkələrinə diqqəti artırıb".

**A.Əlizadə vurğuladı ki, Xəzərin təhlükəsizliyi ilə bağlı növbəti müzakirələr istisna edilmir:** "Bu da dövlət başçıları, diplomatlar səviyyəsində gündəmə gətirilə bilər. Eyni zamanda Xəzər Şurasının yaradılması təklifi ilə yanaşı, 5 ölkənin məsuliyyət daşıdığını deməklə ona işarə vurur ki, onlar kənar qüvvələri regiona cəlb etməsinlər, təsir imkanları tanınmasın. Çünki gələcəkdə Xəzəryanı ölkələrin ikitərəfli və çoxtərəfli əlaqələri fonunda regiondan kənar dövlətlərin Xəzər dənizinə çıxışı istisna edilmir. Bu da Rusiyanın maraqlarına uyğun gəlmir və özünün təsir dairəsindən kənara çıxılmasını istəmir".

**Analitik Ramiyə Məmmədova isə qeyd etdi ki, əvvəla Aktau Konvensiyasının tələblərinə nəzər salanda mühüm bir nüansa diqqət yetirmək lazımdır:** "Bu da qlobal güc mərkəzlərinin geostrateji savaşlarının sənəddə öz əksini tapmasıdır. Belə ki, konvensiyada sahildaş dövlətlər xarici ordularin Xəzərdə məskunlaşmasına izn verməyəcəkləri öhdəliyi götürüblər. Rusiya üçün bundan vacib hal yoxdur. Bu gün NATO ilə Ukraynada döyüşən Rusiyaya suda, havada, quruda ciddi problemlər yaranıb. Qara dənizdəki donanması xeyli dərəcədə sıradan çıxarılıb, Türkiyə hesabına çıxış əldə edir. Ona görə də Rusiya üçün NATO-nun şərqə doğru genişlənməsi məsələsi təkcə quruda yox, sularda da "qırmızı xətt" sayılır. Halbuki Finlandiya və İsveç alyansa qoşulmaqla Baltik gölü "NATO gölü"nə çevrildi. Eyni zamanda, az əvvəl dediyim kimi, Qara dənizdə ciddi itkiləri var. İndi Rusiya istəməz ki, okeana çıxışı olmayan Xəzərə də sahil ölkələrindən birinin vasitəsilə kənar güclər gələ bilsinlər".

**Ekspert qeyd etdi ki, Lavrovun və ümumən Rusiyanın tez-tez Xəzər mövzusuna qayıtması bu narahatlıqdan irəli gəlir:** "Çünki geostrateji qarşıdurmada yalnız quruda getmir. Rusiya regiondan kənar ölkələrin gəmilərini Xəzərdə arzulamır. Yeri gəlmişkən, İran da Rusiya kimi yanaşır. Hətta Xəzərdən uzaqda yerləşən Çinin də dövlət maraqlarına uyğundur. İntəhası, Xəzərin Azərbaycan, Qazaxıstan və Türkmənistan sektorunda neft-qaz layihələri gerçəkləşir. Bu işlərə böyük miqdarda kapital yatırılıb. Xüsusən də ABŞ enerji layihələrində iştirak edir. Vaşinqtonun Konvensiya ilə razılaşacağını gözləmək sadəlövhlük olardı. O baxımdan, ABŞ-nin regiona dənizdən həmləni, təsir gücünü artırmaq cəhdləri davam edəcək. Xüsusən də NATO-nun Qara dənizdə lövbər salması onun Xəzərdə də təsirlərini gücləndirmək iştahını artırır".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025

# İlham Əliyev Yaxın Şərqin yenidən dizaynında

## Azərbaycan lideri son iki həftədə üç mühüm sammitdə iştirakı ilə şübhəli geosiyasi avantüralara qoşulmadığımızı göstərdi; Qəzza zirvəsində iştirakımızın isə iki mühüm səbəbi var...

**Misirin Şarm əl-Şeyx kurortundan "sülh sammiti"nin nəticələri yaxın günlərin, bəlkə də ayların müzakirə mövzusu olaraq qalacaq. Çünki Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi sammit əslində Yaxın Şərqin yenidən şəkilləndirilməsidir.**

"Yeni Müsavat" bildirir ki, Prezident İlham Əliyevin bu qədər məhdud və dar iştirakçı siyahısı ilə sammitə dəvət alması həm Azərbaycanın bir dövlət, həm də Prezidentin siyasi çəkisinin, nüfuzunun bariz sübutudur.

Yeri gəlmişkən, ABŞ lideri Donald Tramp azərbaycanlı həmkarını salamlayıb, prezidentlər birgə foto çəkdiriblər. Sonra Yaxın Şərq Sülh Sammitinin iştirakçıları birgə foto çəkdiriblər.



Sammitdə Tramp Əliyevi güclü lider adlandırıb, Azərbaycan və Ermənistan rəhbərlərinin Vaşinqton görüşünə toxunaraq deyib: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu aladır".

Ümumiyyətlə, Donald Tramp administrasiyası ABŞ-də hakimiyyətə gələndən bəri Bakı-Vaşinqton əlaqələri yüksəlişdədir, ölkəmizin "İbrahim sazişləri"nə qoşulması barədə söhbətlər gedir. Bu da təəccüblü deyil: Azərbaycanın İsraillə, ərəb ölkələri, o cümlədən Qətər, BƏƏ, Səudiyyə Ərəbistanı ilə dostluq münasibətləri var. Nəticə etibarı ilə indi Azərbaycan həqiqətən qlobal problemlərin, o cümlədən Yaxın Şərqdəki problemlərin həllində müstəqil oyunçu kimi iştirak edir.

Azərbaycan uğurlu və həqiqətən çoxvektorlu xarici siyasət yürüdür. Prezident İlham Əliyevin bu yaxınlarda iştirak etdiyi yüksək səviyyəli görüşləri xatırlamaq kifayətdir: oktyabrın 1-2-də Kopenhagendə Avropa Siyasi Birliyinin sammiti; 6-7 oktyabrda Qəbələdə Türkdilli Dövlətlər Təşkilatının sammiti; 9-10 oktyabrda Düşənbədə MDB sammiti keçirildi. Nəhayət, Azərbaycan Prezidenti Yaxın Şərq "sülh sammiti"ndə iştirak etdi.

Bu, sadəcə olaraq, çoxsaylı coğrafi vektorlar arasında uğurlu diplomatiya deyil. Azərbaycan, hər şeydən əvvəl, sözü imza qədər ağır olan etibarlı tərəfdaş olduğunu sübut etdi. Ölkəmiz bir-birinə qarşı koalisiyaya və şübhəli geosiyasi avantüralara qoşulmur. Azərbaycan sülhün, inkişafın, əməkdaşlığın və beynəlxalq hüquqa hörmətin tərəfdarıdır. Ən əsası isə ölkəmizin siyasi çəkisi və nüfuzu dəfələrlə artıb. Bu, "yüksək səviyyəli diplomatiyada" özünü göstərir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə**nin "Yeni Müsavat"a bildirdiyinə görə, Qəzza sammitinə dəvət edilməsi Azərbaycanın geosiyasi nüfuzunun nə qədər yüksəldiyini gözlər önünə sərir. Ç.Qənizadə hesab edir ki, Azərbaycan Fələstinin müstəqilliyini tanıyan ölkələrdən biridir, zaman-zaman anklav bölgəyə humanitar yardımlar da göndərib, bu mənada Misir zirvəsində iştirakı haqq edirik: "Eyni zamanda Azərbaycan Prezidentinin dünya siyasətində reytinqinin və hörmətinin hansı ali səviyyədə olduğu bir daha sübut olundu. İstər Macarıstanın baş nazirinin cənab prezidentə ehtiramı, istər Trampın İlham Əliyevi güclü lider adlandırması, ona rəğbəti, həmçinin Makronun artıq reallıqları dərk edərək münasibətini dəyişməsi göstərir ki, Azərbaycan düz yoldadır. Bizim dürüst siyasətimizin nəticəsidir ki, vaxtilə ölkəmizə qarşı çıxanlar da indi həqiqətlərlə barışırlar. Azərbaycan Qəzza zolağında baş verənlərdə, o cümlədən Ukrayna münaqişəsində həmişə sülhün tərəfdarı olub, zərərçəkən tərəfə humanitar dəstək verib".

**Hüquq müdafiəçisi hesab edir ki, Yaxın Şərqə dayanıqlı sabitliyin gəlməsi üçün ikidövlətli həll planı reallaşmalıdır:** "Azərbaycan da BMT-nin irəli sürdüyü bu ideyanı dəstəkləyir. Yəni Şərqi Qüds paytaxt olmaqla Fələstinin dövlət müstəqilliyi hamı tərəfindən qəbul edilməlidir, İsrail də bununla razılaşmalıdır. Düşünürəm ki, sammitdə əsas müzakirə mövzularından biri də bu ola bilər. Azərbaycan da prosesə töhfə verməyə həmişə hazırdır. Ümumiyyətlə, sammitdə iştirakımız bir daha göstərdi ki, Azərbaycan sülh tərəfarıdır".

**Ç.Qənizadənin sözlərinə görə, bundan əlavə, son iki həftədə dövlət başçısının iştirak etdiyi zirvə toplantıları bizim xarici siyasət vektorumuzun çoxşaxəli olduğunu nümayiş etdirdi:** "Azərbaycan Kopenhagendə avropalı liderlərlə bir araya gəlir, Qəbələdə prioritet hədəfimiz olan Türk dünyasını toplayır və cənab prezident orada birgə hərbi təlimlər keçirilməsini təklif edir, ardınca Yaxın Şərqdə sülhün bərqərar olması prosesində iştirak edir. Bu, bizim nə qədər böyük və səmimi olduğumuzu göstərir".

**Siyasi təhlilçi Asif Nərimanlıya görə, Azərbaycan üçün Qəzza sammiti Prezident İlham Əliyevin iştirakı fonunda xüsusilə maraqlıdır**: "Əliyevin belə bir sammitə dəvət edilməsində Azərbaycanın Yaxın Şərqin gələcəyinin qurulmasında potensial iştirakçılardan olması rol oynayır. Bakı Qəzza münaqişəsinin faktiki tərəflərindən olan Türkiyə və İsrail arasında təmasların təşkil edilməsi təcrübəsinə sahibdir və bölgəyə sülhün gəlməsinə hesablanmış Tramp planında da aktiv fəaliyyət göstərə bilər".

**Onun fikrincə, Azərbaycanın Qəzza sammitinə dəvət edilməsində iki amil də qeyd olunmalıdır:** "Birincisi, Trampın yenidən aktuallaşdırdığı "İbrahim anlaşmaları"dır. İsrail və ərəb ölkələri arasında əməkdaşlığa hesablansa da, ABŞ administrasiyasının coğrafiyanı genişləndirərək, Orta dəhliz xəttindəki ölkələri də daxil etmək istədiyi "İbrahim anlaşmaları"nda Azərbaycanın da yer alması gözləntiləri var. Qəzzada sülhün əldə edilməsi "İbrahim anlaşmaları"nın perspektivini müəyyən edəcək, bu baxımdan, regionun gələcəyinin həll edildiyi sammitdə Azərbaycan liderinin iştirakı ABŞ üçün vacib görünür.

İkincisi, Azərbaycan Qəzzanın bərpasında iştirak edə bilər. Sammitdə bu məsələnin müzakirə ediləcəyi və digər iştirakçı ölkələr kimi, Azərbaycandan da bölgənin yenidən qurulmasında iştirakının istənilməsi istisna edilməməlidir".

**Politoloq Zaur Məmmədov**un fikrincə, Şarm əl-Şeyx sammitində iştirak bir çox dövlətlər üçün arzuolunan diplomatik hadisədir. Onun sözlərinə görə, bu, ilk növbədə həmin liderlərin qlobal siyasi nüfuzunun göstəricisidir və eyni zamanda ABŞ ilə strateji münasibətlərin səviyyəsi ilə birbaşa bağlıdır: "Azərbaycan-ABŞ münasibətləri hazırda yüksək dinamika ilə inkişaf edir. Vaşinqtonda və Yaxın Şərq paytaxtlarında yaxşı anlayırlar ki, Azərbaycan bu gün regionda birləşdirici və inteqrasiyaedici aktor rolunu oynayır. Misirin yerləşdiyi geostrateji məkan və bütövlükdə Yaxın Şərqdə baş verən proseslər fonunda son illər Azərbaycanın diplomatik fəallığı nəzərəçarpacaq dərəcədə artıb".

**Onun fikrincə, Vətən müharibəsindən sonra Azərbaycanın xarici siyasəti yeni istiqamətlərə və strateji hədəflərə yönəlib:** "Ölkə ilk dəfə olaraq Yaxın Şərq və Afrika istiqamətində bu dərəcədə sistemli siyasi və iqtisadi fəallıq nümayiş etdirir. Bu, Azərbaycanın müstəqillik dövründə regional və qlobal səviyyədə daha geniş siyasi manevr imkanları qazandığını göstərir".

Politoloq hesab edir ki, Prezidentin sammitdə iştirakı Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsi, geosiyasi statusunun yüksəlməsi və qlobal diplomatik proseslərdə təsir imkanlarının genişlənməsi baxımından əhəmiyyət kəsb edir.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**




### Qəzzanı kimlər və necə idarə edəcək?

**Oktyabrın 13-də ABŞ, Misir, Qətər və Türkiyə arasında Qəzzada atəşkəs barədə sənəd imzalanıb. İmzalanma mərasimində Qəzzada döyüşən tərəflər - İsrail və HƏMAS nümayəndələri iştirak etməyiblər.**

Tramp gələn həftədən etibarən Yaxın Şərqdə yeni vəzifəyə başlayacaq. O, Qəzza sektoruna nəzarəti bərpa etməyə yönəlmiş "İdarəetmə Şurası"nın rəhbəri olacaq. Bu struktur bölgə sakinləri tərəfindən seçilməsə də, müşahidəçilər Trampın prosesə şəxsən qoşulmasını atəşkəsin qorunması üçün mühüm amil sayır.

ABŞ Prezidentinin təşəbbüsü ilə yaradılacaq şuranın əsas məqsədi Qəzzanın idarəsini HƏMAS-dan alıb müstəqil fələstinli texnokratlara tapşırmaqdır. Plan üzrə yeni təhlükəsizlik qüvvələri Misirdə təlim keçəcək, Qəzzada isə beynəlxalq müşahidəçilər yerləşdiriləcək. HƏMAS tam silahı təhvil verməkdən imtina edir, lakin ABŞ tərəfi kompromis axtarır.

Müzakirələrə görə, bölgədə çoxmillətli "Sabitləşmə qüvvələri" yerləşdirilə bilər. İsrail bu qüvvələrdə Türkiyə hərbçilərinin iştirakına qarşı çıxır, əvəzində İndoneziya variantını təklif edir. Lakin Vaşinqton NATO üzvü kimi Türkiyənin rolunu daha məqsədəuyğun sayır. Eyni zamanda Tramp administrasiyası Qəzzanın bərpası üçün genişmiqyaslı maliyyə paketi və infrastruktur layihələri təklif edir.

İlk dəfədir ki, ABŞ-ın təşəbbüsü təkcə hərbi və siyasi deyil, həm də iqtisadi və idarəetmə mexanizmlərini birləşdirir. Bu yanaşma Vaşinqtona həm bölgədə təsir gücünü bərpa etmək, həm də İsrail, Türkiyə, Misir və Körfəz ölkələri arasında balans yaratmaq imkanı verir.

Beynəlxalq analitiklər isə Qəzza müharibəsinin yekun nəticələrini hələ də müzakirə edir. Əksər müşahidəçilər hesab edir ki, bu qarşıdurmada tam hərbi qalib yoxdur. İsrail İranın regiondakı "şər oxu" adlandırılan təsir dairəsini zəiflətsə, HƏMAS-ın hərbi infrastrukturunun böyük hissəsini məhv etsə də, təşkilatı tam şəkildə sıradan çıxara bilmədi. Müharibə nəticəsində Qəzza faktiki olaraq dağılmış vəziyyətdə qalıb, lakin siyasi baxımdan bölgənin idarə olunması hələ də qeyri-müəyyəndir. HƏMAS isə ağır itkilər verməsinə baxmayaraq, tam təslim olmadı və ideoloji varlığını qoruyub saxladı.



# “7 oğul”dan birinin məzarı ilə bağlı qalmaqal

## Şeyx Əbdül: “Ənvər Həsənov Fəxri Xiyabanda dəfn olunmayıbsa, ona qəbirüstü abidə qoyulmamalıdır?”

**Mədəniyyət Nazirliyi Xalq artisti Ənvər Həsənovun qəbirüstü abidəsinin hazırlanmasından imtina edib. Xalq artistinin qızı Aytən Həsənova deyib ki, atası dünyasını dəyişəndən bir neçə gün sonra ailə abidənin hazırlanması üçün Mədəniyyət Nazirliyinə müraciət edib: “Bizə bildirdilər ki, atam Fəxri Xiyabanda dəfn olunmadığı üçün qəbirüstü abidəni hazırlaya bilməzlər”.**

Mədəniyyət Nazirliyi isə məlumata aydınlıq gətirib. Nazirlik bildirib ki, Mədəniyyət Nazirliyinin fəaliyyəti “Mədəniyyət haqqında” Qanun və digər müvafiq normativ-hüquqi aktlarla müəyyən olunur: “Nazirliyin əsas vəzifəsi milli mədəni irsin qorunması, incəsənətin və yaradıcı mühitin inkişaf etdirilməsi, həmçinin mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsidir. Qəbirüstü abidələrin hazırlanması və quraşdırılması məsələləri Mədəniyyət Nazirliyinin səlahiyyət dairəsinə daxil deyil və bu istiqamətdə qərarlar, adətən, ailə üzvlərinin təşəbbüsü ilə həyata keçirilir. Bununla belə, nazirlik Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) və digər müvafiq qurumlarla birgə mümkün dəstək imkanlarının tapılması istiqamətində də çalışır.

Eyni zamanda qeyd olunmalıdır ki, Xalq artisti Ənvər Həsənovun səhhətinin ağır olduğu dövrdə nazirlik onun vəziyyətini daim diqqətdə saxlamış, müalicə prosesinə mümkün dəstəyi göstərmişdir. Sənətkarın vəfatından sonra da nazirlik onun xatirəsinin yad edilməsi tədbirlərinə, həmçinin ailəsinə mənəvi və təşkilati dəstəyini nümayiş etdirmişdir.

Mədəniyyət Nazirliyi Xalq artisti Ənvər Həsənovun zəngin yaradıcılıq irsini yüksək qiymətləndirir, onun Azərbaycan mədəniyyətində dərin iz qoyan fəaliyyətini böyük ehtiramla xatırlayır və sənətkarın xatirəsinin yaşadılmasına yönəlmiş təşəbbüsləri səlahiyyətləri çərçivəsində gələcəkdə də dəstəkləməyə hazırdır".

“Mənim Mədəniyyət Nazirliyinə əmr vermək kimi səlahiyyətim yoxdur. İctimai təşkilatıq”. Bunu da “Qaynarinfo”ya açıqlamasında Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev Mədəniyyət Nazirliyinin Ənvər Həsənovun qəbirüstü abidəsinin hazırlanmasından imtina etməsinə aydınlıq gətirərkən deyib.

**Sədr sənət adamlarının kateqoriyalarına görə dəfn olunduğunu xatırladıb:** “Mən buna neynim? İnsanlar kateqoriyalarına görə dəfn edilir. Kateqoriyaları üstün olanlar Birinci Fəxri Xiyabanda, ondan az olanlar "Qurd Qapısı" qəbiristanlığında dəfn edilir. Əminə Yusifqızını da orada basdırdılar. Biz ictimai təşkilatıq, belə məsələlər isə nazirliyin səlahiyyətindədir".

Xatırladaq ki, Xalq artisti Ənvər Həsənov bu ilin mart ayında uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib. Sənətkar ailəsinin arzusu ilə Bakının Buzovna qəsəbəsində yerləşən ailə qəbiristanlığında, həyat yoldaşı, tanınmış aktrisa Möminat Qurbanovanın məzarı yanında dəfn olunub.

Ənvər Həsənov Azərbaycan kinosunun unudulmaz simalarından biri kimi tamaşaçıların yaddaşında silinməz iz buraxıb. Onun “Yeddi oğul istərəm” filmində canlandırdığı Cəlal, eləcə də “Uşaqlığın son gecəsi” filmindəki Murad obrazı aktyorun yüksək peşəkarlığını nümayiş etdirib.

Bununla belə, xalq artistinin vəfatından aylar keçməsinə baxmayaraq, məzarının üstündə hələ də abidə ucaldılmaması cəmiyyətdə, xüsusilə kino ictimaiyyəti və sənətsevərlər arasında ciddi narazılıq doğurub. Sənət adamları bu halı həm Ənvər Həsənovun sənət irsinə, həm də ümumilikdə mədəni irsə qarşı biganəlik kimi qiymətləndirirlər.



**Mövzu ilə bağlı Xalq artisti, kinorejissor-aktyor Şeyx Əbdül Mahmudov “Yeni Müsavat”a danışıb:** “Bu məsələ mənim ən ağrılı yerimdir. Şəxsən mən bu məsələdə çox acı çəkirəm. Ənvər Həsənov ömrünü kinoya həsr edib, ən böyük filmlərdə oynayıb. İndi yalnız bir qızı var, o da xəstədir və onun imkanı yoxdur ki, qəbirüstü abidə düzəltsin.

Hüquqi baxımdan belə məsələlərdə hansı qurumun səlahiyyətli olduğunu dəqiq bilmirəm, amma hesab edirəm ki, Azərbaycan Kinematoqrafçılar İttifaqı dövlət tərəfindən aldığı vəsaitdən istifadə edərək Ənvər Həsənov üçün qəbirüstü abidənin hazırlanmasına kömək edə bilər. Azərbaycanda ikinci belə Ənvər Həsənov olmayıb. Mənim də imkanım yoxdur, kömək edə bilmirəm. Bəs indi necə olsun? Əminəm ki, təsadüfi adamlara qoyulan bəzi abidələr vaxtı gələndə dağılsa da, Ənvər Həsənovun filmləri insanlara əbədi olaraq qalacaq, ürəklərdə abidə kimidir. Niyə bu abidəni düzəltmirlər? Nə böyük işdir ki? Ona görə də həmişə demişəm: kino ittifaqının rəhbərliyinə kinorejissor gətirilməlidir. Rejissorlar bilirlər kimə necə dəyər vermək lazımdır. Bu gün orada rəhbər olanlar isə gördüyünüz kimi, kino üçün, kino adamları üçün heç nə etmirlər. Əgər bu gün həmin qurum bu cür hallara kömək etməyəcəksə, o zaman o qurumun nə işi var? Dəfələrlə demişəm ki, kino ittifaqı bağlanmalıdır, çünki heç bir işə yaramır, fəaliyyət göstərmir, sadəcə, dövlətdən vəsait alırlar. Beləmi olmalıdır - bir Ənvər Həsənova qəbirüstü abidə qoyulmasın? İndi nə olsun ki, o, Fəxri Xiyabanda dəfn olunmayıb? Burada mənəviyyat məsələsi durur. Onun xanımı da çox gözəl aktrisa olub. Hər ikisi üçün abidə, başdaşı düzəltmək nə dərəcədə çətin olar? Bu abidə nəinki Ənvər Həsənova, nəinki onun xanımına lazımdı, bu, Azərbaycan xalqına lazımdır. Gələcək nəsillərə lazımdır. Onlar haqq dünyasına köçüblər, bizə qalır onlara hörmət etmək".

**Deputat, parlamentin Mədəniyyət komissiyasının sədri Fazil Mustafa isə qeyd edib ki, qəbirüstü abidənin qoyulması məsələsi qanunvericiliyə əsasən hər hansı bir dövlət qurumunun birbaşa səlahiyyətinə aid deyil:** “Adətən bu cür təşəbbüsləri dövlətin müxtəlif qurumları və ya fondlar həyata keçirir, lakin bu, sırf humanitar xarakter daşıyan bir addım kimi qiymətləndirilir. Əgər büdcədə bu istiqamətdə vəsait nəzərdə tutulmayıbsa, Mədəniyyət Nazirliyinin həmin işi görməsi praktiki olaraq mümkünsüzdür. Buna görə də bu mövzuya dair verilən cavablar əslində məhz bu səbəbdən yaranır. Amma ümumilikdə Ənvər Həsənov Azərbaycanın çox dəyərli sənət adamı, böyük şəxsiyyətlərindən biri idi. Onun xatirəsini əbədiləşdirmək üçün dövlət qurumlarının birbaşa addım atması çətin görünür. Bu işi daha çox xeyirxah insanlar, iş adamları, sənətkarın pərəstişkarları və onun sənətinə dəyər verən şəxslər fərdi təşəbbüs kimi həyata keçirə bilərlər.

Bu səbəbdən də bu cür müraciətlərə verilən cavabları kimisə ittiham kimi qəbul etmək doğru olmaz. Çünki belə bir işin görülməsi üçün mütləq büdcə vəsaiti ayrılmalıdır, əgər bu vəsait yoxdursa, dövlət qurumları da faktiki olaraq hər hansı addım ata bilmirlər. Belə hallarda məsələ çox vaxt fərdi təşəbbüslə, yeni ailə üzvlərinin, yaxın qohumların və ya könüllü şəkildə bu işə qoşulan şəxslərin vasitəsilə həll olunur. Əgər ailənin imkanı və təşəbbüsü yoxdursa, bu zaman vəziyyət doğrudan da çətinləşir. Ona görə də, qeyd etdiyim kimi, bu məsələyə daha obyektiv baxmaq lazımdır".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# “Kitabımı oxumayıb mənimlə şəkil çəkdirirlər...”

## Anar: “Yazıçılar Birliyinin o qədər dərdi var ki, bununla da məşğul olmalıdırlar?”

**Azərbaycanda kitab qiymətləri heç də ucuz deyil. Elə buna görədir ki, bir insan kitabı oxuyandan sonra digər dostlarına vermək məcburiyyətində qalır.**



Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Moderator.az-a açıqlamasında kitab qiymətlərinin bahalığından və kitab sərgisi çərçivəsində satılan kitablardan danışıb: “Mən 11-ci Kitab Sərgisində gedib iştirak etməmişəm. Yalnız yazıçı Elçinə aid bir tədbir oldu, o zaman gedib iştirak etdim. Sərgidən xəbərim yoxdur. Məncə, bu kimi festivalların, sərgilərin təsiri çox olur. Olmasa, hər halda, bu qədər xərc çəkib sərgi keçirməzlər. O ki qaldı kitabların qiymətinin baha olmasına, təki kitab oxusunlar. Diqqətli oxucu azalıb. Həmin pulu o qədər yerlərə xərcləyirlər ki, kitaba versələr, daha yaxşı olar. Əgər insanlar kitabların qiymətinin baha olmasından şikayətlənirlərsə, təki qiymətləri onlar üçün ucuzlaşdırsınlar. Mənim bu mövzu haqqında heç bir təklifim yoxdur. Yazıçılar Birliyinin o qədər dərdi var ki, bununla da məşğul olmalıdırlar? Bu ticarətin, nəşriyyatların problemidir. Onlar kitab çap edirlərsə, onun xərcini çıxarmalıdırlar. Sovet illərində həvayı kitab buraxırdılar. Satılsa da, satılmasa da. İndi bazar iqtisadiyyatı dövrüdür. Yüz dəfə müraciət edib, bununla bağlı təkliflər versən də heç bir mənası yoxdur. Bizim vaxtımızda hamı kitab oxuyurdu, qiymətinə fikir vermirdilər. İndi oxucuları şəkil çəkdirənlər əvəz ediblər. Mən sərgiyə getdim, hər tərəfdən üstümə töküldülər ki, şəkil çəkdirsinlər. Mənim kitabımı oxumayan adamlar niyə mənimlə şəkil çəkdirirlər, bunu anlamıram?! Yoxsa mənimlə şəkil çəkdirib sosial şəbəkəyə qoymağın bir mənası yoxdur”.

**AYB-nin üzvü, yazıçı, Mingəçevir Dövlət Dram Teatrının ədəbi hissə müdiri Elçin Mehrərrəm bildirib ki, kitabların qiymətinin baha olması onu da narahat edən əsas məsələlərdən biridir:** “Mən özümü hələ yaxşı yazıçı, dramaturq adlandırmasam da, yaxşı oxucu adlandıra bilərəm. Özümün şəxsi kitabxanam var. Hər ay bu kitabxanaya mütləq və mütləq yeni kitab əlavə edilməlidir. Əvvəllər aldığım maaşla ayda 4-5 kitab alırdımsa, indi bu say azalıb. Belə getsə, məcbur olub, kitabxanalardan kitab oğurlayacam. Onsuz da kitab oxuyan azdır, bu azlığın əlində olan imkanları da məhdudlaşdırmaq olmaz. Məncə, kitablarla bağlı qiymət artımına nəzarət edən ayrıca qurum yaradılsa pis olmaz”.

**Gənc yazıçı klassik və müasir xarici müəlliflərin əsərlərini öz dilimizdə tapa bilmədiyini deyib:** “Xarici müəllifləri öz dilimdə oxumaq istəyirəm, çünki bədii mətni təhlil edəcək qədər xarici dil bilgilərinə sahib olmadığım üçün buna məcburam. Yəni istəmək yox, məcburiyyət demək daha doğru olar. Amma dilimizdə istədiyim müəllifin əsərini tapmaqda çətinlik çəkirəm. Misal üçün, mən bu yaxınlarda yazıçı, dramaturq M.Bulqakovun "Teatral roman" (bəzi mənbələrdə "Bir ölünün qeydləri") əsərini öz dilimizdə axtardım, amma tapa bilmədim".

❑ **“Yeni Müsavat”**

# Üç ölkə Bakıda razılaşa bilmədi - yeni təfərrüat

## Haqqın.az: "Azərbaycan, İran və Rusiya hökumət nümayəndələrinin tədbiri geosiyasi və infrastruktur asılılığı səbəbindən əlaqə saxlamaq məcburiyyətində qalan qonşuların görüşü təsirini bağışladı"



Fərzanə Sadiq

**Bakıda Azərbaycan, İran və Rusiya hökumət nümayəndələri və dövlət şirkətlərinin rəhbərlərinin iştirakı ilə "Şimal-Cənub" beynəlxalq dəhlizinin inkişafına həsr olunmuş üçtərəfli görüş heç bir mühüm nəticə verməyib. Bu barədə Haqqın.az öz təhlil yazısında qeyd edir.**

"Tədbir geosiyasi və infrastruktur qarşılıqlı asılılıq səbəbindən əlaqə saxlamaq məcburiyyətində qalan qonşuların toplantısına bənzəyirdi. Hər tərəf öz maraqlarına diqqət yetirərək ortaq gələcək üçün perspektivləri müzakirə edərkən ehtiyatlı davrandı. "Şimal-Cənub" dəhlizinin qərb qolunun Bakıda həyata keçirilməsi üçün konkret parametrlərin 2028-ci il yanvarın 1-də işə salınmasına, gözlənilən illik daşıma həcminin 5 milyon ton, sonradan isə 2030-cu ilədək 15 milyon tona çatdırılmasına baxmayaraq, marşrut üzrə zəmanətli ötürücülük məsələsi gündəmə gəlib.

İran tərəfi, xüsusən də yollar və şəhərsalma naziri Fərzanə Sadiq tərəflərin bu marşrutdan istifadə etmək niyyətlərinin sənədli təsdiqinə ehtiyac olduğunu vurğulayıb. O hesab edir ki, "Şimal-Cənub" dəhlizində illik ən azı 15 milyon ton yük daşıma qabiliyyətini nəzərdə tutan müvafiq proqram hər üç ölkə tərəfindən ən yüksək səviyyədə təsdiq edilməlidir. Tehranın bu niyyəti tikinti başlamazdan əvvəl tərəfdaşların iqtisadi öhdəliklərini rəsmiləşdirmək cəhdi kimi şərh edilə bilər ki, bu da üç onilliklər ərzində müzakirə olunan layihənin icrasını daha da ləngidə bilər", - deyə qeyd olunur.

O da bildirilir ki, 164 kilometrlik Qəzvin-Rəşt dəmir yolu hissəsini tamamlayan İran daha mürəkkəb, mühəndislik və maliyyə baxımından çətin olan 163 kilometrlik Rəşt-Astara hissəsini maliyyələşdirməkdən imtina edir. Fars körfəzinə davamlı ixrac marşrutunu təmin etməkdə maraqlı olan Rusiya İranda tikinti üçün torpaq almağı öhdəsinə götürüb. Bu günə qədər təxminən 80 kilometr alınıb, qalan ərazilərin isə 2026-cı ilin aprel ayına kimi başa çatdırılması gözlənilir. Rusiya tərəfinin ümumi investisiyası 1 milyard avronu keçə bilər. Rusiya maliyyə institutlarının, o cümlədən VTB Bankın maliyyələşdirməyə töhfə verəcəyi gözlənilir.

Rusiya baş nazirinin müavini Aleksey Overçukun sözlərinə görə, hazırda dəhlizin planlaşdırılan İran hissəsi üçün kəşfiyyat və uzaqdan zondlama işləri aparılır. O, həmçinin "Şimal-Cənub" marşrutunun qərb qolunda multimodal daşımaların inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, layihənin iqtisadi səmərəliliyini artırmaq üçün əks nəqliyyat axını sisteminin yaradılmasının vacibliyini qeyd edib.

Azərbaycan isə praqmatik mövqeyini qoruyur: milli dəmir yolu operatoru ADY özünün milli nəqliyyat strategiyasının maraqlarından çıxış edərək Rusiya resurslarının iştirakı olmadan öz dəmir yolu infrastrukturunu modernləşdirir. "Şimal-Cənub" dəhlizi layihəsi uğurla həyata keçirilərsə, ölkə yüksək səmərəli tranzit axınlarını təmin edə və regionda logistika qovşağı statusunu möhkəmləndirə bilər.

Bununla belə, əsas və ən az aydınlaşdırılan məsələ üç ölkənin enerji sistemlərinin sinxronlaşdırılması yolu ilə "Şimal-Cənub" enerji dəhlizinin yaradılmasıdır - bu təşəbbüs 2005-ci ildən müzakirə olunur. 2018-ci ilin may ayında Rusiyanın Vahid Enerji Sisteminin sistem operatoru texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanması üçün texniki spesifikasiyaların razılaşdırılması planlarını elan etdi. 2019-cu ilin dekabrında isə ölkələr layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına dair saziş imzalayıblar. Proses COVİD-19 pandemiyası ilə əlaqədar dayandırılıb və danışıqlar 2022-ci ilin dekabrında bərpa olunub. Bununla belə, işlərin davam etdirilməsi üçün "Azərenerji" SC tərəfindən əlavə araşdırmalar tələb olunur.

Rusiya Energetika Nazirliyinin məlumatına görə, Azərbaycanın enerji sistemi İrana 200 meqavata qədər enerjinin ötürülməsinə tab gətirmək iqtidarındadır, sonradan 400 meqavata qədər artırılması mümkündür.

Bununla belə, Bakı müəyyən şübhə ilə yanaşır, yerli ekspertlər araşdırmalarını davam etdirməkdə israr edirlər. Azərbaycanlı ekspertlər izah edirlər ki, elektrik enerjisinin sabit sistemlərarası ötürülməsi generasiya tezliklərinin sinxronlaşdırılması və axınların etibarlı idarə olunması infrastrukturunu tələb edir. Azərbaycan və Gürcüstan arasında sabit cərəyanın (DC) parametrlərini tənzimləyən üç fazalı generatorlar və sinxronlaşdırıcı yarımstansiyalar artıq fəaliyyət göstərdiyi halda, İranda belə bir sistem mövcud deyil. Bu baxımdan, milli enerji sistemlərini riskə atmamaq üçün sinxronizasiya üçün texniki şərtləri dəqiqləşdirmək lazımdır. Ona görə də enerji inteqrasiyası layihəsi, ölkələr arasında mövsümi enerji mübadiləsi praktikasının davam etməsinə baxmayaraq, uzunmüddətli layihənin taleyini yaşaya bilər.

Əlavə mürəkkəblik Rusiya və İrana qarşı beynəlxalq sanksiyalar rejimidir ki, bu da yüksək texnologiyalı enerji infrastrukturu sahəsində dövlətlərarası əməkdaşlığa və beynəlxalq maliyyələşdirməyə çıxışa mane olur.

Azərbaycan həm nəqliyyat, həm də enerji dəhlizlərinin inkişafı ilə bağlı müzakirələrdə iştirak edərkən, geoiqtisadiyyat, regional təhlükəsizlik, xarici iqtisadi əlaqələrin şaxələndirilməsi perspektivindən potensial faydaları qiymətləndirərək, ilk növbədə öz milli maraqlarından çıxış edir.

❑ "Yeni Müsavat"



# Bakı, Moskva və Tehran bəyanat yaydı

**Rusiya, Azərbaycan və İran "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşımaların həcmini artırmaq üçün işləmək barədə razılığa gəlib.**

Bu barədə Bakıda Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev, Rusiya baş nazirinin müavini Aleksey Overçuk və İranın yollar və şəhərsalma naziri Fərzanə Sadiq arasında keçirilən üçtərəfli görüşün yekunlarına dair birgə bəyanatda bildirilib.

""Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşımaların həcminin 15 milyon tona çatdırılması və yük axınlarının davamlı artımının təmin edilməsi üçün tədbirlərin görülməsinin zəruriliyi vurğulanıb. 3 ay müddətində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üzrə Tədbirlər Planının hazırlanması üçün işçi qrupunun yaradılması barədə razılıq əldə olunub. Müzakirələr zamanı oktyabrın 14-də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin mühüm infrastruktur layihələrinin birgə yerində yoxlanılması barədə razılıq əldə olunub", - sənəddə deyilir.

# Spikerlər İslamabad Bəyannaməsi qəbul etdi

## Azərbaycan-Pakistan-Türkiyə parlamentinin rəhbərlərinin görüşündə mühüm razılaşmalar əldə edildi

**Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin görüşü İslamabad Bəyannaməsinin qəbul olunması ilə başa çatıb.**

Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq tədbirin üç qardaş ölkə arasında bir sıra aktual məsələlərin ətraflı müzakirəsi baxımından yaxşı imkanlar yaratdığını bildirib. O, bu platformanın əhəmiyyətini, üç dost və qardaş ölkə parlamentləri arasında əlaqələrin daha da genişləndirilməsində mühüm rolunu qeyd edib.

İclasda çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova regionda və ümumən beynəlxalq aləmdə baş verən proseslərin və ölkələrimiz arasındakı əlaqələrin nəzərdən keçirildiyini, ortaq maraq kəsb edən məsələlərə dair fikir mübadiləsi aparıldığını söyləyib.

Spiker Sahibə Qafarova qardaş ölkələrimiz arasındakı əlaqələrə uyğun olaraq, parlamentlərimizin də üçtərəfli əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri, bu mexanizmi daha da gücləndirmək, parlament diplomatiyasının effektiv alətlərindən birinə çevirmək yolları haqqında fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.

Parlament üzvləri arasında müzakirə olunan mövzulara toxunan Milli Məclisin sədri ərazi bütövlüyü və suverenliyinin müdafiəsi, xarici təhdidlərə qarşı həmrəylik məsələsini ölkələrimiz arasında qardaşlığın və qarşılıqlı dəstəyin ən yaxşı şəkildə nümayiş etdirən bir məsələ olduğunu qeyd edib və bu istiqamətdə müzakirələri faydalı hesab edib.

Spiker həmçinin iqlim dəyişiklikləri və dayanıqlılıq mövzusunun əhəmiyyətini qeyd edərək, ölkəmizin bu sahədə gördüyü işlər, o cümlədən Azərbaycanın qardaş Türkiyədə baş vermiş zəlzələ, Pakistandakı daşqınlar zamanı öz qardaşlıq dəstəyini göstərdiyini vurğulayıb. O, digər tərəfdən, COP29 çərçivəsində Azərbaycanın qazandığı nailiyyətləri xüsusi qeyd edib. Parlament üzvlərimizin bu məsələlər haqqında müzakirələrini faydalı hesab edərək, gələcək əməkdaşlıq çərçivəsində iqlim dəyişiklikləri və təbii fəlakətlərə qarşı mübarizə məsələsinin daha çox əhatə olunmasının vacibliyini vurğulayıb.



Azərbaycan parlamentinin spikeri, həmçinin Üçüncü Üçtərəfli Görüşün yekunu olaraq, qəbul olunan İslamabad Bəyannaməsinin ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bütün aspektlərini əhatə etdiyini, parlamentlərimizin birgə fəaliyyətinin əhəmiyyətini vurğuladığını, o cümlədən əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yeni imkanları təsbit etdiyini söyləyib. Onun sözlərinə görə, bəyannamə həmçinin regional və qlobal proseslərə münasibətdə ortaq baxışlarımızı əks etdirir.

Milli Məclisin sədri sonda bir daha vurğulayıb ki, parlamentlərimiz arasındakı bu səmərəli əməkdaşlıq formatı birgə səylərimizlə bundan sonra da uğurla davam edəcək. Bu əməkdaşlıq xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, ölkələrimizin maraqlarına xidmət edir, onlar arasındakı dostluq və qardaşlıq əlaqələrinin, birlik və həmrəyliyin daha da güclənməsinə töhfə verir.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş da ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün parlament diplomatiyasının imkanlarından istifadə edilməsinin vacibliyini qeyd edib. O, Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşünün uğurla nəticələndiyini qeyd edərək, vurğulayıb ki, görüşün nəticələri gələcək əməkdaşlıq üçün çox faydalı olub.

❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025

## Azad edilmiş ərazilərdə villalar istifadəyə veriləcək

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeni mənzil və villalar istifadəyə veriləcək. Oxu.az xəbər verir ki, bunu PMD Group MMC-nin daşınmaz əmlakın inkişafı üzrə direktoru Kamil Əliyev 30-cu yubiley "Xəzər İnşaat Həftəsi" çərçivəsində bildirib.**

Onun sözlərinə görə, böyük turizm potensialına malik Hadrutda 28 evdən ibarət kompleksin inşası artıq başa çatıb:

"Bu ilin sonunadək tam təchizatlı evlər və villalar icarəyə təqdim olunacaq. Bundan başqa, Ağdamda ilk yaşayış kompleksi artıq sakinlərini qəbul edir. Ötən il 130 otaqlı "Aghdam City Hotel"in açılışı baş tutub. Ağdamda yaşayış kompleksinin ikinci və üçüncü fazaları üzrə inşaat işlərinə bu ilin sonunda başlamağı planlaşdırırıq. Layihə çərçivəsində 480 mənzil və 6 700 kvadratmetr qeyri-yaşayış sahəsi satış ofisləri vasitəsilə təqdim olunacaq".

Kamil Əliyev əlavə edib ki, bu ilin sonundan etibarən Zəngilanda 100 otaqlı şəhər hotelinin tikintisinə başlanılması nəzərdə tutulur: "Suqovuşanda isə villa kompleksinin inşası artıq tamamlanıb və villalar tam hazır vəziyyətə gətirilib", - deyə şirkət rəsmisi vurğulayıb.

# SOCAR-ın "LUKoil"in iki milyardlıq aktivlərini almasına əngəl

## Aktivlərin bölüşdürülməsində Bolqarıstanın siyasi hakimiyyətinin ayrı-ayrı üzvlərinin maraqları var

**Rusiya nəhəngi "LUKoil"in Bolqarıstandakı aktivləri uğrunda mübarizə özünün həlledici və ən gərgin mərhələsinə qədəm qoyub. Bu haqda Haqqın.az saytı yazır. Məlumdur ki, Bolqarıstan Rusiyanın Ukraynaya təcavüzünü pislədiyindən, "LUKoil" 2023-cü ilin sonundan Bolqarıstandakı aktivləri üçün alıcı axtarır.**

Elə həmin vaxtlar da zavoda iddiaçılar sırasında SOCAR-ın adı hallanmağa başlayıb. Ondan başqa alıcılar siyahısında Macarıstanın MOL, Qazaxıstanın "KazMunayQaz" şirkəti, iki ABŞ fondu, Türkiyənin Oyak Pensiya Fondu, Vitol treyder şirkəti də var.

O ərəfədə Azərbaycanın Sofiyadakı səfiri Hüseyn Hüseyn Hüseynov "Euronews" a bildirib ki, konkret təklif alınarsa, Bakı Bolqarıstandakı "LUKoil"in Burqas neft emalı zavodunu almağa hazırdır.

Qeyd edək ki, SOCAR-ın Bolqarıstanda iş təcrübəsi var. 2023-cü ilin aprelində ölkə rəhbəri Roman Radev və Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə SOCAR Sofiyada ofis açıb.

SOCAR Trading Gas and Power Bolqarıstanda təbii qaz ticarəti üçün Enerji və Su Tənzimləmə Komissiyasından (EWRC) lisenziya alıb. O vaxt Komissiyanın sədr müavini olan D.Dobrev coğrafi baxımdan əlverişli neft hasilatı sahəsinə və yaxşı təşkil olunmuş təchizat zəncirinə malik SOCAR-ı potensial alıcı kimi dəstəkləyib.

Eyni zamanda SOCAR "LUKoil"lə uzunmüddətli əməkdaşlıq əlaqələrinə malikdir. Bir müddət əvvəl "LUKoil"lə mühüm razılaşma əldə edib: SOCAR-ın ABŞ banklarına olan kredit borcunun bağlanması üçün daha əlverişli şərtlərlə kreditin ayrılması, eyni zamanda Türkiyədəki STAR neft emalı zavoduna gündə 200.000 barelə qədər Rusiya xam neftinin tədarükü ilə bağlı.

SOCAR-ın Türkiyə şirkəti ilə qurduğu konsorsium son aylara qədər Burqas neft emalı zavodunu almağa ən real namizəd hesab olunurdu. Hətta artıq danışıqların son mərhələyə daxil olduğuna dair məlumatlar da yayılıb. Doğrudur, sentyabrda Bolqarıstan mətbuatı Azərbaycanın Rusiya ilə münasibətlərinin soyuqlaşması fonunda "LUKoil"in SOCAR-la danışıqlara fasilə verdiyinə dair məlumat yaymışdı. Bunun Rusiya hakimiyyətinin "LUKoil"ə təzyiqləri ilə bağlı olduğu bildirilirdi. Lakin bu məlumatın reallıq əmsalı elə də yüksək deyil, çünki "LUKoil"in Azərbaycanda böyük investisiyaları var, təzyiq layihələrdən çıxması istiqamətində olardı.

Burqas neft emalı zavodu 2,5 milyard dollar dəyərində qiymətləndirilir. Potensial alıcıdan bu məbləğin ödənməsi tələb edilir. SOCAR-Çengiz Holdinq konsorsiumu bu məbləği ödəməyə razılaşıb. Lakin Bolqarıstanda zavod, ümumilikdə "LUKoil" aktivlərinin satışına müdaxilələr getdikcə artır. Belə ki, haqqın.az-ın yazdığına görə, bu həftə Bolqarıstan Milli Assambleyası İnvestisiya Qanununa düzəlişi təsdiqləyib. Düzəliş "LUKoil"in aktivlərinin satışının əvvəlcə Milli Təhlükəsizlik üzrə Dövlət Agentliyi (SANS), sonra isə Nazirlər Şurası tərəfindən nəzərdən keçirilməsini və təsdiqlənməsini tələb edir. Formal olaraq, bu, məntiqli görünür, çünki söhbət strateji aktivlərdən - ildə 9,5 milyon tondan çox gücü olan neft emalı zavodundan, yanacaqdoldurma məntəqələri şəbəkəsindən və Qara dənizdəki Burqas limanında bunker biznesindən gedir.




Bildirilir ki, parlamentdə səs çoxluğuna sahib olan bolqarıstanın baş naziri Boyko Borisovun və Hüquq və Azadlıqlar Hərəkatının həmsədri Delyan Peevskinin diktəsi ilə qəbul edilmiş sənəd bu sövdələşməni ləngidir. Onlar yeni sənədi "milli maraqların qorunmasının zəruriliyi ilə izah edirlər".

Yerli media bu düzəlişi aktivlərin bölüşdürülməsində siyasi hakimiyyətin ayrı-ayrı üzvlərinin maraqlarının təmin olunması imkanı kimi qiymətləndirir. "The Wall Street Journal" isə yazıb ki, Borisov Donald Trampın kiçik oğlu ilə görüşüb və "LUKoil"i Bolqarıstan aktivlərində Amerika investorları ilə əvəz etməyi təklif edib. Guya bunun müqabilində isə Bolqarıstanın keçmiş maliyyə naziri Vladislav Qoranovun adının "Maqnitski Aktı" sanksiya siyahısından çıxarılmasını təklif edib.

Beləliklə, "LUKoil"in Bolqarıstandakı aktivləri ətrafında çoxqatlı iqtisadi, siyasi, hətta geosiyasi mübarizə gedir. SOCAR-Cengiz konsorsiumunun hələ də sövdələşməni tamamlamaq şansı var, lakin bu, indi intriqa və təzyiq mühitində qəbul edilən qərarlardan asılıdır. "LUKoil" Bolqarıstanda artıq 10 milyard rubl ziyana düşüb və ölkədən çıxışını başa çatdırmaq niyyətindədir. Ancaq bunun necə həyata keçiriləcəyi hələ şübhəlidir.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın "Yeni Müsavat"a dediyinə görə, xaricdəki aktivlər SOCAR-a böyük gəlirlər gətirir:** "SOCAR-ın illik hesabatlarına baxsaq, açıq görərik ki, gəlirlərin mühüm əksəriyyəti xaricdəki fəaliyyətindən, xaricdəki aktivlərdən gəlir. Türkiyədəki Star zavodundan və sair. Yeni xaricdə, xüsusilə Avropada əldə olunan aktivlər gəlirli aktivlərdir. Məsələn, bu yaxınlarda İtaliyada böyük bir aktiv əldə etdi. Çoxsaylı yanacaqdoldurma stansiyaları, 2 neft emalı zavodu və sair. Bolqarıstandakı zavod da kifayət qədər böyük, Bolqarıstan üçün strateji əhəmiyyətli müəssisədir. Onu əldə etmək SOCAR-ın Avropadakı biznesinin genişlənməsi baxımından müsbət addım olar".

Xatırladaq ki, 2013-cü ildə SOCAR Yunanıstanda keçirilən açıq tenderdə qalib gələrək yerli qazpaylayıcı şəbəkə operatoru olan DESFA şirkətini almışdı. Alqı-satqı müqaviləsinin imzalanması ərəfəsində Yunanıstan hakimiyyəti prosesə müdaxilə edərək, müxtəlif bəhanələrlə onun baş tutmasına imkan vermədi. Bir neçə illik araşdırmalardan sonra SOCAR prosesdən çəkilməli oldu. Eyni halın Burqas neft emalı zavodu ilə bağlı da təkrarlanması mümkündürmü?

İ.Şaban deyir ki, Bolqarıstandakı zavodu almamaqla SOCAR heç nə itirməyəcək: "Qeyd etdiyim kimi, SOCAR o zavod olmadan da Avropada fəaliyyətini genişləndirir. İtaliyada əldə etdiyi aktivlər buna sübutdur: ümumilikdə 10 milyon tonluq emal gücünə malik iki zavod. Kifayət qədər böyük potensiallı aktivdir. Bolqarıstanda da cəhd edir, alınar-alınar, alınmaz alınmasın. SOCAR ondan heç nə itirməyəcək".

Bəzi mənbələr Burqas neft emalı zavodunun əldə olunmasından sonra Bakı-Supsa neft kəmərinin fəaliyyətinin bərpa olunması imkanının yaranacağını bildirirlər. Məlumdur ki, Bolqarıstdandakı zavod Rusiya nefti ilə işləyib. Tərkibcə bu neftə ən yaxın olan isə Qazaxıstan neftidir. Güman edilir ki, zavodu əldə edərsə, SOCAR onun digər ölkələrin neftinə uyğunlaşdırmaq üçün 500 milyon avro sərmayə yatırması lazım gələcək. Lakin Qazaxıstan nefti alınaraq Bakı-Supsa ilə Burqasa çardırılarsa, bu investisiyaya ehtiyac qalmaz.

**İ.Şabana görə, zavod alınarsa, onun üçün neft tapmaq elə də çətin olmayacaq:** "Bakı-Supsa 3 ildir fəaliyyətsizdir. Bir neçə dəfə Qazaxıstan neftinin onunla nəqli məsələsi qaldırılıb, lakin müzakirələr nəticəsiz qalıb. Bundan sonra da onun işə salınmaması Burqasdakı zavodun neftsiz qalması demək olmayacaq. Neft hazırda kifayət qədərdir".

Maraqlıdır ki, yerli media Bolqarıstan Milli Assambleyasının İnvestisiya Qanununa etdiyi düzəlişin Avropa Komissiyasının hüquqi aktlarına zidd olduğuna dair məlumat yayır. Bildirilir ki, biznesin fəaliyyətinə subyektiv müdaxilə imkanı yaradan düzəliş Avropa Komissiyasının biznes azadlığına dair tələblərinə ziddir. Buna görə də tezliklə AK-ın Bolqarıstan hökumətinə öz etirazını çatdıracağı gözlənilir. Bu, SOCAR-ın Burqas neft emalı zavodunu əldə etməsi üçün düzəlişin yarada biləcəyi maneələri aradan qaldıra bilər.

Bir məsələ də var ki, Azərbaycanın Bolqarıstanla kifayət qədər müsbət əməkdaşlığı mövcuddur. Ölkə Azərbaycan qazının Avropada ən böyük 3 alıcısından biridir. Sentyabrın 24-də Nyu-Yorkda Prezident İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Rosen Jelyazkov ilə görüşü olub.

**Rəsmi məlumata görə, baş nazir Rosen Jelyazkov Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğunu deyib, Prezident İlham Əliyev də öz növbəsində münasibətlərin ənənəvi dostluq və tərəfdaşlıq xarakteri daşıdığını qeyd edib:** "Söhbət zamanı enerji sahəsində hazırkı uğurlu əməkdaşlığımızdan məmnunluq ifadə edildi, bu sahədə əlaqələrin inkişafı üçün yeni perspektivlərin olduğu bildirildi".

Göründüyü kimi, hətta məlum düzəliş fonunda belə, SOCAR-ın Burqas neft emalı zavodunu almasına Bolqarıstan hakimiyyətinin maneə yaradacağı ehtimalını yüksək qiymətləndirmək mümkün deyil.

**Dünya SAKİT, "Yeni Müsavat"**

Dövlətçilik, tarix, mədəniyyət

YENİ MÜSAVAT

N 186 (8796) 15 oktyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

# 34 il müstəqillik yolunda

## 18 oktyabrda qəbul edilən bu sənəd xalqımızın əsrlər boyu arzuladığı müstəqilliyi reallığa çevirdi

**Bu il müzəffər Azərbaycan xalqı dövlət müstəqilliyimizin bərpasının 34-cü ildönümünü böyük qürur və iftixar hissi ilə qeyd edir. 34 il öncə 1991-ci ilin 18 oktyabrında Azərbaycan Respublikası Ali Soveti tarixi qərar qəbul etdi: "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı". Bu sənəd Azərbaycan xalqının azadlıq, milli suverenlik və öz müqəddəratını təyinetmə hüququnun təntənəsi idi. Hələ oktyabrın 8-də işinə başlayan növbədənkənar sessiyada məsələ dörd gün müzakirə olunsa da, o dövrün mürəkkəb ictimai-siyasi şəraiti qərarın qəbulunu bir həftə sonraya saxladı. Nəhayət, 18 oktyabrda qəbul edilən bu sənəd xalqımızın əsrlər boyu arzuladığı müstəqilliyi reallığa çevirdi.**




2021-ci il oktyabrın 15-də isə Prezident İlham Əliyevin təşəbbüsü ilə Milli Məclis "Müstəqillik Günü haqqında" yeni Qanunu təsdiqlədi. Bu qanuna əsasən, 28 may tarixi Müstəqillik Günü, 18 oktyabr isə Müstəqilliyin Bərpası Günü elan olundu. Bu qərar həm tarixi ardıcıllığın qorunması, həm də milli yaddaşın daha aydın sistemləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Lakin müstəqilliyi qazanmaq qədər onu qoruyub saxlamaq da çətin, məsuliyyətli və qürurlu bir missiyadır. 1990-cı illərin əvvəllərində gənc dövlətimiz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Siyasi xaos, silahlı qarşıdurmalar, iqtisadi tənəzzül və dövlət idarəçiliyində böhran hökm sürürdü. Lakin bu ağır və sınaqlı günlərdə Azərbaycan xalqı böyük qətiyyət və iradə nümayiş etdirərək öz taleyinə sahib çıxdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin xilaskarı oldu. Onun uzaqgörən siyasəti və dövlətçilik iradəsi sayəsində ölkəmizdə sabitlik, qanunçuluq və milli həmrəylik bərpa edildi. Heydər Əliyev qısa zamanda ölkədə xaosu, anarxiyanı, iqtisadi durğunluğu aradan qaldırdı, Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxardı. O, Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi dünyaya təqdim etdi. Heydər Əliyevin rəhbərliyi ilə müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğuna başlanıldı.

Bu gün də Heydər Əliyevin siyasi irsini uğurla davam etdirən Prezident İlham Əliyev müstəqil Azərbaycanın qüdrətini daha da artırır, ölkəmizi regionun ən güclü dövlətlərindən birinə çevirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş, praqmatik və milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan iqtisadi, siyasi, sosial və hərbi sahələrdə böyük inkişaf yolu keçib.

Azərbaycan artıq regionda cərəyan edən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərən, istiqamət verən güclü dövlətə çevrilib. Beynəlxalq birliklə qarşılıqlı faydalı əməkdaşlıq genişlənib, Azərbaycanın nüfuzu beynəlxalq arenada getdikcə artıb. Dövlət başçısının müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadi sistemlərdən birinə çevrilib.

Heydər Əliyevin ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirildi. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu şanlı Qələbə qazandı. Bu qələbə ilə xalqımız on illərlə davam edən işğala son qoydu, torpaqlarını azad etdi, milli qürurunu və tarixi ədaləti bərpa etdi.

Bu gün azad olunmuş torpaqlarımıza həyat qayıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, Böyük Qayıdış Proqramı uğurla həyata keçirilir. Yenidən inşa olunan şəhər və kəndlər, açılan yollar və hava limanları, bərpa olunan tarixi abidələr Azərbaycanın iqtisadi gücünü, dövlət iradəsini və milli birliyini əks etdirir.

Ərazi bütövlüyümüzün tam bərpasını isə 2023-cü ilin sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri təmin etdi. Azərbaycan Silahlı Qüvvələri qısa zamanda Qarabağdakı qeyri-qanuni erməni silahlı birləşmələrini tərk-silah etdi, separatçı rejimin fəaliyyətinə son qoydu və ölkə suverenliyi tam bərpa olundu.

Bu gün Azərbaycanın üçrəngli bayrağı ölkəmizin hər bir şəhərində, hər bir kəndində qürurla dalğalanır.

Tarixi Zəfərlər, dövlət müdrikliyi və xalq birliyi sayəsində bu gün Azərbaycan bütün dünyaya bəyan edir ki , Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır!"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# ATƏT sədri Bakıya gələsi olmadı

## Bədnam Minsk Qrupu Azərbaycanda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatını gözdən və etimaddan salıb

**Finlandiyanın xarici işlər naziri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri Elina Valtonen Cənubi Qafqaza səfəri çərçivəsində bu gün Azərbaycana gəlməli idi. Cənubi Qafqaza üç günlük səfəri çərçivəsində xanım Valtonen Ermənistanda olub. Bu gün isə Gürcüstandan sonra Bakıya gələcəyi gözlənilirdi. Lakin səfər təxirə salınıb. "Report"a bu barədə məlumatlı mənbədən bildirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə bildirib ki, ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonenin bölgəyə səfəri Azərbaycan Respublikasından başlamalı idi. "Bu səfər 13 oktyabr tarixinə nəzərdə tutulmuşdu. Lakin cənab Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitinə dəvət edilməsi və onun, habelə rəhbərlik etdiyi nümayəndə heyətinin sammitdə iştirak etməsi səbəbindən qeyd edilən səfər təxirə salındı. Hazırda Finlandiya xarici işlər nazirinin ölkəmizə səfərinin yeni tarixləri üzərində iş aparılır", - XİN rəsmisi vurğulayıb.**



Elina Valtonen İrəvanda Ermənistan XİN rəhbəri Ararat Mirzoyanla birgə mətbuat konfransında bildirib ki, ATƏT-in Minsk Qrupu ilə bağlı strukturlar dekabrın 1-dən gec olmayaraq bağlanacaq. O, ATƏT-in Ermənistanda və bütün regionda sülhü dəstəkləməyə hazır olduğunu qeyd edib.

Bu, Valtonenin ATƏT-in fəaliyyətdə olan sədri kimi regiona ilk səfəridir. Səfər zamanı regional təhlükəsizlik məsələlərinin və Cənubi Qafqaz ölkələri ilə ATƏT arasında əməkdaşlığın gücləndirilməsinin müzakirə ediləcəyi öncədən açıqlanıb.

ATƏT-in fəaliyyətdə olan sədri vəzifəsi təşkilat çərçivəsində fəaliyyətin və iştirakçı dövlətlər arasında əməkdaşlığın əlaqələndirilməsi məqsədilə təsis edilib. Təşkilata sədrlik edən ölkə Nazirlər Şurasının qərarı ilə bir il müddətinə müəyyən edilir. Fəaliyyətdə olan sədr funksiyalarını isə həmin ölkənin xarici işlər naziri həyata keçirir.

Azərbaycan ATƏM-in (1 yanvar 1995-ci ildən ATƏT) üzvülüyünə 1992-ci ilin 30 yanvarında qəbul olunub. ATƏM Azərbaycanın daxil olduğu ilk Avropa təşkilatıdır. ATƏT iştirakçı dövlətlərinin 323 parlamentarisindən təşkil edilmiş Parlament Assambleyası ATƏT-in muxtar qurumu kimi parlament müstəvisində dialoqun təşviqi məqsədi ilə fəaliyyət göstərir və məşvərətçi xarakter daşıyır.

Qeyd edək ki, Azərbaycan bu təşkilata hər il 45 min avro üzvlük haqqı ödəyir.

8 avqust Vaşinqton görüşünün nəticəsi olaraq ATƏT-in Minsk Qrupunun ləğvi barədə qərarın qəbul edilməsindən sonrakı mərhələdə Azərbaycanın ATƏT çərçivəsində fəaliyyətinin əsas istiqamətləri maraq doğurur. Bundan sonrakı mərhələdə bu istiqamətlər əsasən nələr ola bilər?

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, Regional məsələlər komitəsinin üzvü Arzuxan Əlizadə** "Yeni Müsavat"a bildirdi ki, ATƏT-in hazırda fəaliyyətdə olan sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonen Cənubi Qafqaza ilk səfəri idi: "Görünən bundan ibarətdir ki, ilk səfər tanışlıq xarakteri daşıyır. Bundan əlavə, Cənubi Qafqaz ölkələri ilə ATƏT arasında müxtəlif sahələr üzrə əməkdaşlıq perspektivlərinin müzakirə olunması ehtimalı var. Həmçinin o da məlumdur ki, dekabrın 1-dək ATƏT-in Minsk Qrupu və onun digər strukturlarının ləğv ediləcəyi də gözlənilir. Təəssüf ki, ATƏT-in Minsk Qrupu və bütövlükdə ATƏT 30 ilə yaxın müddət ərzində Azərbaycanın ərazilərinin Ermənistanın işğalı altında olduğu süreçdə faktiki olaraq fəaliyyətsizlik göstərdi. Minsk Qrupunun bu münasibəti, bir çox hallarda işğalçı tərəfin mövqeyinin gücləndirilməsinə yönəlik siyasət aparması, faktiki olaraq işğal faktının uzanmasına səbəb olması Azərbaycan dövlətində və cəmiyyətində Minsk Qrupu ilə yanaşı, ATƏT-in özünə də müəyyən inamsızlıq, etimadsızlıq yaratdı. Artıq ədalət öz yerini tutub və Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad edib, Minsk Qrupuna ehtiyac qalmayıb. Ona görə də Minsk Qrupu və ona bağlı olan müvafiq strukturların ləğvi üçün Azərbaycan müraciət edib. Artıq Minsk Qrupunun ləğvi barədə qərar da qəbul edilib. Qeyd etdiyimiz kimi, dekabrın 1-dək bu strukturlar ləğv ediləcək. Bu məsələ də, hər halda, müzakirə mövzusu olub olacaq".

**Deputatın sözlərinə görə, görünən bundan ibarətdir ki, bundan sonra ATƏT üzv ölkələrlə təşkilatdaxili əlaqələrin genişləndirilməsini və əməkdaşlığı davam etdirməyə çalışacaq:** "ATƏT sədrinin Cənubi Qafqaz ölkələrinə səfəri həm də məhz əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsidir. ATƏT-in müxtəlif profilli strukturları var. Azərbaycan həmin strukturlarla uzun illərdir əməkdaşlıq edir və bundan sonra da edəcək".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025



# Günah öləndədir?

## Piyadavurma hadisəsinin 80 faizi onların öz səhvlərinə görə baş verir

**Qəza əleyhinə kursların məşqçisi Aqil Rəhimov piyadaların məsuliyyətsiz davranışlarını tənqid edib və baş verən qəzaların böyük əksəriyyətində günahın piyadaların üzərində olduğunu bildirib. Avtosfera.az xəbər verir ki, məşqçi bu fikirləri özünün sosial şəbəkə hesabında paylaşdığı videoda səsləndirib.**

Aqil Rəhimovun sözlərinə görə, son illərdə baş verən 10 piyada vurulması hadisəsindən təxminən 8-də günahkar məhz piyadaların özləridir. O qeyd edib ki, xüsusilə qaranlıq vaxtlarda bir çox piyadalar yol keçərkən ehtiyatsız davranır və bu da qəzaların əsas səbəblərindəndir: “Fikir verin, axşam vaxtıdır, qaranlıqdır, sürücülər yolu çətinliklə görürlər. Amma insanlar buna baxmayaraq yolu istədikləri yerdən keçirlər. Bu qədər ehtiyatsızlıq olmaz. Bəziləri deyə bilər ki, infrastruktur zəifdir, piyada keçidi yoxdur. Amma baxın, çox vaxt cəmi 10-15 metr aralıda piyada keçidi olur, amma yenə də insanlar oradan keçmirlər və həyatları ilə risk edirlər”.

**Aqil Rəhimov hesab edir ki, vəziyyəti düzəltmək üçün həm inzibati cərimələr artırılmalı, həm də maarifləndirmə işləri gücləndirilməlidir:** “Cərimələr artırılmalıdır. Əgər piyada vurulması hadisəsində sürücü günahsızdırsa, bu hallar televiziya kanallarında ictimaiyyətə göstərilməlidir. İnsanlar görməlidir ki, bəzən piyadanın məsuliyyətsizliyi nəticəsində avtomobil zədələnir, sürücü stress keçirir, amma günahkar piyada olur. Belə faktlar açıq şəkildə işıqlandırılmasa, vəziyyət düzəlməyəcək”.

Məşqçinin fikrincə, yol təhlükəsizliyi ilə bağlı maarifləndirici materialların televiziya və sosial media vasitəsilə geniş şəkildə yayılması insanlarda məsuliyyət hissini artırar və qəzalara səbəb olan bu cür halların qarşısını qismən də olsa ala bilər.

# Bakıda moped sürənlərə qadağa

## Azərbaycanda moped sürücüləri üçün “prava” dövrü başlayır



**Azərbaycanda moped sürücülərinə yeni qaydalar tətbiq ediləcək. “Yol hərəkəti haqqında” Qanuna ediləcək dəyişikliklərə əsasən, yaxın aylardan etibarən bu nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunacaq.**

Məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə olunub. Deputatların fikrincə, bu dəyişikliklər moped sahibləri arasında məsuliyyət hissini artırmaq, yol qəzalarının və qayda pozuntularının sayını azaltmaq məqsədi daşıyır.

Qanun layihəsində moped anlayışının daha dəqiq müəyyənləşdirilməsi, bu nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması və uçota götürülməsi də nəzərdə tutulur. Bununla yanaşı, mopedlər üçün əvvəllər mövcud olan “yalnız yolun sağ kənarı ilə hərəkət etmək” tələbi ləğv edilir. Yeni qaydalara görə, motosiklet və mopedlərlə yük daşınmasına da məhdudiyyət qoyulur. Belə ki, nəqliyyat vasitəsinin eni və ya uzunluğunu 0,5 metrdən artıq keçən yük daşımaq qadağan edilir.

Layihə qəbul olunduqdan 3 ay sonra qüvvəyə minəcək. Hazırda ölkədə minlərlə vətəndaş moped və kiçik mühərrikli nəqliyyat vasitələrindən istifadə edir. Onların əksəriyyətinin nə sürücülük vəsiqəsi, nə də qeydiyyat sənədi var. Yeni dəyişikliklər qüvvəyə mindikdən sonra bu nəqliyyat vasitələrini idarə etmək istəyənlər A1 kateqoriyalı sürücülük vəsiqəsi almalı olacaqlar.

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı** hesab edir ki, son illər mopedlərin iştirakı ilə baş verən qəzalar artıb və bu sahədə müəyyən nəzarət mexanizmlərinə ehtiyac var idi: “Bir çox hallarda moped sürən şəxslər nə yol hərəkəti qaydalarını bilirlər, nə də təhlükəsizlik vasitələrindən istifadə edirlər. Qəzaların qarşısını almağın yeganə yolu onların da sürücülük təlimindən keçməsi və qeydiyyata alınmasıdır.

Tətbiq ediləcək yeni qaydalar moped sürücülərinin törətdiyi çoxsaylı qayda pozuntularına cavabdır. Biz dəfələrlə dedik ki, əgər onlar qaydalara əməl etməsələr, sərt qərarlar veriləcək və qaydalar tətbiq ediləcək. Lakin moped sürücüləri bizi dinləmədilər, bu gün isə onun nəticəsi ilə üz-üzə qalıblar.

Moped sürücülük vəsiqəsi tələb olunmayan sürətli nəqliyyat növüdür və rahat ikin nəfəri daşıya bilir. Ona görə də bir çox insanlar mopedlərə maraq göstərirlər. Təəssüf ki, bu maraq qaydalar çərçivəsində olmur. Bəziləri mopeddən ona görə istifadə edir ki, nömrə yoxdur, sürücülük vəsiqəsi tələb olunmur və istədiyini edə bilər. Düşünürlər ki, qayda pozsalar da, onları heç kim saxlamayacaq.

Son zamanlar belə bir tendensiya yaranıb: moped sürücüsü yol polisinin xidməti avtomobilinin güzgüsünə sürtünüb qaçır və bu hərəkəti çəkərək, sosial şəbəkədə paylaşır. Mopedin nömrəsi olmadığına görə belə adamları aşkarlamaq da çətindir".

**Ekspertin sözlərinə görə, yeni qaydalardan sonra xəta törədən moped sürücüləri cəzadan yayına bilməyəcəklər:** “Bəzən mopedlər binaların həyətlərinə girdikdə onlardan elə səs çıxır ki, düşünürsən ki, kimsə tankla məhləyə gəlib. Belə ki, moped sürücüləri səsboğucuya müdaxilə edirlər və bu da ətrafa dəhşətli səslər verir. Kuryerlər 300-400 manat pul verib səs çıxaran cihazlar alıb istifadə edirlər. Daha anlamırlar ki, bu səslərlə gecə-gündüz insanları narahat edirlər. Moped sürücüsünə deyirsən ki, bunu etmə. Deyir ki, qanun qadağan etmir ki. Deməli, qanundan xəbəri var. Ancaq qırmızı işıqdan keçəndə deyir ki, bunun mopedlərə də aid olduğunu bilmirdi. Özlərinə sərf edəndə qanunu bilirlər, sərf etməyəndə isə deyir ki, qanundan xəbəri yoxdur. Halbuki qanundan xəbərsiz olmaq onu məsuliyyətdən azad etmir. Avtomobil qırmızı işıqdan keçəndən cərimələnir, amma moped qırmızı işıqdan keçəndə ona cərimə yazan yoxdur. Çünki nömrəsi yoxdur. Bu il 9 ay ərzində 10 nəfər moped qəzasında ölüb. Bu rəqəmlər sizə az görünməsin, cəzasızlıqla mübarizə aparmaq lazımdır. Dəfələrlə xəbərdarlıq edildi ki, məsuliyyətli olun, qaydalara əməl edin. Çalışdığım redaksiyanın yanında hər axşam 7-8 nəfər moped sürən yığışır. Onların gurultusundan bina silkələnir. Onlar müəyyən ərazidə bir dövrə vururlar və sonra da məhlələrin arasında gizlənirlər ki, polis onları saxlamasın. Növbəti gün eyni şey təkrar olunur. Yolun ortasında elə oyunlar çıxarırlar ki. Ona görə də sərt qaydaların tərəfdarıyam. Qoy insanları narahat edən, qırmızı işıqda keçən, qəza törədən moped sürücüləri cəzalandırılsın. Gecə saat 2-də məhləyə gələn moped sürücüsü o dərəcədə yüksək səsdən istifadə etməməlidir. İstehsalçı zavod mopedi aşağı səslə buraxır, lakin bizim bəzi sürücülərimiz onu dəyişdirib, yüksək səs qoydururlar. Elə bilirsən ki, həyətə hansısa yarış maşını daxil olub. Mopedin səsinin gur çıxmasından zövq alırlar”.

Digər tərəfdən, bəzi ekspertlər hesab edirlər ki, keçid dövründə bu qərar müəyyən narazılıqlara səbəb ola bilər. Çünki hazırda ölkədə minlərlə insan mopeddən gündəlik iş məqsədilə - kuryerlik, kiçik daşımalar və ya şəxsi nəqliyyat kimi istifadə edir. Onların qısa zamanda sürücülük vəsiqəsi alması və nəqliyyat vasitəsini qeydiyyata salması əlavə maddi yük yarada bilər.

**Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev “Yeni Müsavat”a açıqlamasında bildirib ki, moped sürücüləri arasında müəyyən sui-istifadə halları belə bir qərarın verilməsinə ehtiyac yaradıb:** “Həm sürət, həm də yük daşınmasında normanın keçilməsi ilə bağlı hərəkətlər bu növ qərarları lübüd edib. Düşünürəm ki, doğru qərardır, son zamanlar moped sürücülərindən yetərincə narazılıq var idi. Bu qərarlar onları nizamlı hərəkətə sövq edəcək. Qoyulan tələblərə əməl edilməlidir ki, ümumi yol hərəkəti təhlükəsizliyinə zəmin yaransın. Yəni hər bir hərəkət iştirakçısının təhlükəsizliyi önəmlidir, müəyyən qaydalardan kənara çıxanda bu, ümumi sistemə problemlər yaradır. Sürəti keçmə halları müşahidə olunur, nəqliyyat vasitəsinə konstruktiv dəyişikliklər edirlər. Yeni qaydalar bu növ halları aradan qaldıracaq”.

Qeyd edək ki, bu dəyişikliklərin əsas məqsədi təhlükəsizliyi təmin etmək və hərəkət mədəniyyətini formalaşdırmaqdır. Yeni qaydalar tətbiq ediləndən sonra moped sürücüləri avtomobil və motosiklet sürücüləri ilə eyni hüquqi məsuliyyət daşıyacaqlar.

Beləliklə, yaxın aylarda ölkədə moped idarə etmək üçün “prava” dövrü başlayır. Bu addımın nə dərəcədə effektiv olacağı isə qanunun icra mexanizmlərindən və vətəndaşların yeni tələblərə adaptasiyasından asılı olacaq.

**Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

**Elan:**

**30 sentyabr 2025-ci il tarixli elanımızda vətəndaş Hacıyeva Siyasət Musayevna ilə “Sapfir-insaat” mənzil tikinti kooperativi arasında 8 iyul 2015-ci ildə bağlanan 119 saylı alqı-satqı müqaviləsi itdiyi üçün həmin müqaviləni tapan səxsə hədiyyə veriləcəyi qeyd edilmişdi. Lakin bu zaman ərzində həmin müqavilə tapılmadığından etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 186 (8796) 15 oktyabr 2025

# Ziyanlı yağların ölkəmizə idxalının arxasında kimlər durur?

## Palma yağından istifadə edənlər artır

**Palma yağının ziyanlı olması ilə bağlı yayılan fikirlər vətəndaşları illərdir narahat edir. Çünki marketlərdə satılan çox sayda şokolad və qidaların tərkibinə bu yağdan qatılır.**



Avropalı həkimlər bu yağdan istifadənin piylənmə və xroniki xəstəliklərin inkişafına gətirib çıxardığını deyir. Lakin istehlakçıları palma yağının zərərsizliyinə və hətta xeyirli olduğuna inandırmaq üçün səy göstərən istehsalçılar da var. Ümumdünya Səhiyyə Təşkilatının hazırladığı hesabatda sağlamlığa və ətraf mühitə dəyən zərərin səviyyəsinə görə palma yağının istehsal və satış sənayesinin miqyası birbaşa tütün və alkoqol sənayesi ilə müqayisə edilir. Vurğulanır ki, digər bitki yağları ilə müqayisədə palma yağının tərkibində doymuş yağların miqdarı xeyli yüksəkdir. Doymuş yağlar isə orqanizm üçün zərərli hesab edilir.

Qeyd etdiyimiz kimi, ölkəmizdə palma yağından istifadə edənlər artır. Məlumat üçün bildirək ki, bu il Azərbaycana 22 min tona yaxın palma yağı idxal edilib. Dövlət Statistika Komitəsinin hesabatı əsasında aparılan hesablamalara görə, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici həcm ifadəsində 9% və ya 2.2 min ton azalıb, dəyər ifadəsində isə 10.1% və ya 2.9 milyon ABŞ dolları artıb. 2025-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana 31 milyon 252.2 min ABŞ dolları dəyərində 21 min 814.6 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilib. Bir kiloqram palma yağının orta idxal qiyməti 22% artaraq 2.44 manata çatıb. Maraqlıdır, palma yağının zərərləri ilə bağlı cəmiyyətdə ciddi müzakirələr edilir, maarifləndirmə kampaniyaları aparılır. Bəs palma yağı Azərbaycana niyə böyük həcmdə idxal olunur?

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov "Bakı-xəbər"ə açıqlamasında qeyd edib ki, ölkədə qida ilə bağlı ciddi problemlər var:** "Danılmaz faktdır ki, Azərbaycan istehlakçıları digər ölkələrlə müqayisədə apteklərə çox üz tutur. Xəstəxanalarda həkim qəbulunda növbələr yaşanır. Son illər xəstəliklərin artması əslində istifadə olunan qidanın keyfiyyəti ilə bağlıdır. Əksər dünya ölkələri uzunömürlüyünə görə Azərbaycandan öndədir. Bunun da səbəbi, təbii ki, keyfiyyətsiz qidalardır. Keyfiyyətsiz qidalara yağ, çörək, şirniyyat, müxtəlif növ içkilər və digərləri daxildir".

**Həmsöhbətimiz bildirdi ki, palma yağı çox ucuz qiymətə başa gəlir. Duru yağ olaraq, yeni bitki yağı olaraq dünya bazarına girdikdə bu yağlar digər duru yağ istehsalçıları ilə ciddi rəqabət mühiti yaradır:** "Palma yağı iki cür olur, biri onun lətindən, meyvəsindən, biri də toxumundan çəkilir. Toxumdan hazırlanan yağlar normaldır, Avropa bazarında da satılır. Ancaq gövdəsindən və yarpağından hazırlanan yağlar sənaye üçündür. Təəssüf ki, bizdə bu yağlar sərbəst şəkildə satılır. Onkoloji xəstəlikdən əziyyət çəkənlərin sayının artması bunun kimi keyfiyyətsiz məhsullarla bağlıdır. Sənaye üçün lazım olan palma yağının qidada istifadə olunması yolverilməzdir".

# Azərbaycanda kərə yağı kəskin bahalaşdı

## Hansı ölkələrdən və neçəyə gətirilir?



**Bu ilin ilk 8 ayı ərzində Azərbaycana xarici ölkələrdən 98 milyon 703,2 min dollar dəyərində 13 min 625,6 ton kərə yağı idxal olunub. Yeniavaz.com-a istinadən xəbərinə görə, xaricdən gətirilən kərə yağının bir kiloqramının orta gömrük dəyəri 7,2 dollar (12,2 manat) olub.**

Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə idxal olunan kərə yağının bir kiloqramının orta gömrük dəyəri 5,3 dollar (9 manat) təşkil edib.

Açıqlanan rəqəmlərdən də göründüyü kimi, idxal olunan kərə yağının gömrük dəyəri son bir ildə 35,5% bahalaşıb.

Onu da bildirək ki, bu ilin ilk 8 ayında Azərbaycan 18 ölkədən kərə yağı idxal edib.

Ən çox kərə yağı İrandan (5 372,9 ton), ən az isə İspaniya və Lüksemburqdan (hər birindən 0,01 ton) gətirilib.

Ən baha kərə yağı Lüksemburqdan (bir kiloqramı 117,3 manat), ən ucuz isə Hindistandan (9,8 manat) idxal edilib.

Ötən ildən fərqli olaraq, bu il Azərbaycana Səudiyyə Ərəbistanından da böyük miqdarda - 1 011,4 ton kərə yağı gətirilib.

**Bu ilin ilk 8 ayında Azərbaycan aşağıdakı ölkələrdən kərə yağı idxal edib:**

*İran - 5 372,89 ton (bir kiloqramının orta gömrük dəyəri 10,5 manat)*

*Türkiyə - 161,62 ton (13,1 manat)*

*Yeni Zelandiya - 3 205,55 ton (13,1 manat)*

*Ukrayna - 1 078,7 ton (12,6 manat)*

*Səudiyyə Ərəbistanı - 1 011,42 ton (14,5 manat)*

*Belarus - 924,55 ton (12,9 manat)*

*Finlandiya - 749,51 ton (16 manat)*

*Hindistan - 429 ton (9,8 manat)*

*Fransa - 259,68 ton (16,6 manat)*

*Almaniya - 236,89 ton (16,4 manat)*

*Belçika - 82,5 ton (15,2 manat)*

*Litva - 55,12 ton (15,4 manat)*

*Türkmənistan - 20 ton (9,9 manat)*

*İtaliya - 17,46 ton (20,6 manat)*

*Polşa - 14,95 ton (15 manat)*

*Rusiya - 5,07 ton (17,9 manat)*

*Portuqaliya - 0,64 ton (38,3 manat)*

*İspaniya - 0,01 ton (11,9 manat)*

*Lüksemburq - 0,01 ton (117,3 manat).*

Məlumat üçün onu da qeyd edək ki, bu ilin avqust ayında marketlərdə kərə yağının orta pərakəndə satış qiyməti bir kiloqram üçün 24,1 manat olub.

# Sahibkarlara zəmanətlə 93 milyon manat kredit verilib



**Ölkəmizdə qeyri-neft sektorunun inkişafı, biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindəndir.**

Modern.az xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə ilk dəfə olaraq sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə zəmanətin və bu kreditlər üzrə hesablanmış faizlərə görə subsidiyaların verilməsinə başlanılıb. Fərmana əsasən, kredit-zəmanət mexanizminin formalaşdırılması və inkişaf etdirilməsi Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun qarşısında prioritet vəzifə kimi müəyyən edilib.

2025-ci il oktyabrın 1-nə olan məlumata görə, müvəkkil banklar tərəfindən fondun zəmanəti ilə sahibkarlara 642 milyon manat məbləğində kredit verilib ki, bunun da 93 milyon manatı cari ilin yanvar-sentyabr aylarının payına düşür.

Mexanizm çərçivəsində indiyə qədər zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, fond tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki illik faiz dərəcəsi 6,2%, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.

Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib.

Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayrılan kreditlər vasitəsilə maliyyələşən layihələr üzrə 6000-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2022-ci il tarixli 1832 saylı Fərmanına əsasən, qeyri-neft sektorunda fəaliyyət göstərən mikro və kiçik sahibkarların, eləcə də emitent şirkətlərin maliyyə vəsaitlərinə əlçatanlığının artırılması məqsədilə sahibkarlığa dəstək alətlərinin çeşidi artırılıb və iki yeni alətin - sahibkarların manatla aldıqları kreditlərə münasibətdə kredit portfelinin təminatı, həmçinin istiqrazlar üzrə emitentlərin (sahibkarların) öhdəliklərinə təminat mexanizmlərinin tətbiqinə başlanılıb.

YENİ MÜSAVAT
Son səhifə
N 186 (8796) 15 oktyabr 2025
Oktyabr



## 20 dəqiqə belə kifayətdir - təbiətdə olmağın 4 faydası

**Araşdırmalar göstərir ki, təbiətdə vaxt keçirmək üçün saatlarla gəzməyə ehtiyac yoxdur - yalnız 20 dəqiqə belə bədən və zehniniz üçün əhəmiyyətli faydalar yaradır.**

Milli.Az sizə həmin faydaları təqdim edir:

**1.** Stressi azaldır və rahatlaşdırır

Yaşıl meşələr, ağaclar və quş səsləri avtonom sinir sistemini sakitləşdirir, qan təzyiqini azaldır və ürək ritmini normallaşdırır. Həftədə ən azı 120 dəqiqə təbiətdə vaxt keçirənlər daha sağlam və psixoloji olaraq rahat olur.

**2.** Hormonları tənzimləyir

Açıq havada olmaq kortizol və adrenalin səviyyələrini aşağı salır, təbii öldürücü hüceyrələrin sayını artırır və immunitet sisteminə müsbət təsir göstərir.

**3.** Təbiətin qoxusu sakitləşdirir

Şam ağaclarının və torpağın qoxusu yalnız 90 saniyədə sakitlik gətirir və bu təsir təxminən 10 dəqiqə davam edir. Hətta körpələr də bəzi təbii qoxularla rahatlaşa bilir.

**4.** Bağırsaq sağlamlığını gücləndirir

Torpaq və bitkilərdəki yaxşı bakteriyalar bağırsaq mikrobiomunu zənginləşdirir, immuniteti gücləndirir və psixi sağlamlığı dəstəkləyir.

# İndoneziyada it və pişik ətinin satışı qadağan edilacək



**İndoneziyada it və pişik ətinin insanlar üçün nəzərdə tutulan qidalarda istifadəsi məqsədilə satışını qadağan edən qanun hazırlanır. Bu barədə paytaxt Cakartanın qubernatoru Pramono Anunq Vibovo açıqlama verib. "Cakartada it ətinin istehlakını qadağan edən əsasnamənin hazırlanması üçün müraciət daxil olub", - deyə o bildirib.**

Qubernatorun sözlərinə görə, bu təşəbbüs ölkənin Nazirlər Kabinetinin quduzluğun yayılmasına qarşı qabaqlayıcı tədbirlərin bir hissəsi olacaq. Vibovo həmçinin qeyd edib ki, əgər şəhərdə qadağanın tətbiqi üçün qanunvericilik baxımından əlavə tənzimləmə tələb olunarsa, o da baxılmaq eyni şəkildə parlamentə təqdim olunacaq.

## Səhər yeməyindən imtina etməyin gizli təhlükəsi



**Çinin Ninsya Tibb Universitetinin alimləri tərəfindən aparılan genişmiqyaslı metatəhlil göstərib ki, səhər yeməyindən imtina etmək piylənmə, yüksək qan təzyiqi (hipertoniya), qanda qlükozanın artması və xolesterin pozuntuları kimi əlamətlərlə xarakterizə olunan metabolik sindrom riskini əhəmiyyətli dərəcədə artırır.**

Onminlərlə insanın iştirak etdiyi doqquz elmi tədqiqatın analizi sübut edib ki, səhər yeməyini mütəmadi şəkildə buraxan insanlarda metabolik sindromun yaranma ehtimalı 10-26% daha yüksəkdir. Bu şəxslərdə xüsusilə qarın nahiyəsində piylənmə (abdominal piylənmə) və qanda qlükoza səviyyəsinin artması daha çox müşahidə olunur.

Tədqiqat müəllifləri qeyd edirlər ki, müntəzəm səhər yeməyi orqanizmin metabolizmini sabit saxlamağa kömək edir. Bu isə diabet və ürək-damar xəstəliklərinin qarşısını almağın sadə və effektiv üsullarından biri hesab olunur. Alimlər vurğulayıblar ki, səhər yeməyindən imtina etmək zərərsiz vərdiş deyil, əksinə, xroniki xəstəliklərin yaranması üçün potensial risk faktorudur.



## Velosiped sürmək stresi azaldır

**Klinik və idman psixoloqu Natalya Zyazinanın fikrincə, velosiped sürmək meditasiyaya bənzəyən dövriliyi sayəsində stresin öhdəsindən gəlməyə kömək edir. O, bunu "Komsomolskaya Pravdaya" müsahibəsində bildirib. Psixoloq deyib ki, velosiped idmanı biomexaniki hərəkət quruluşuna görə dövri fiziki fəallıq növlərinə aiddir. Bu da eyni hərəkətin təkrarlanması deməkdir. O əlavə edib ki, bu, orqanizmin bütün sistemlərinin fəallaşmasına, optimal sinir-psixoloji gərginlik səviyyəsinə çatmasına, habelə fiziki işdən sonra xoş hisslər keçirməsinə kömək edir. Bundan əlavə, velosiped sürərkən özünə nəzarət və fiziki gərginliyə davam gətirmək bacarığı məşq olunur. Velosipedi yavaş sürmək insana meditasiya təsiri edir, onun rahatlaşmasına və stresdən qurtulmasına səbəb olur.**

## Bunları bilirsinizmi?

* İnsanın nazik bağırsağı sağlığında 2.5 metr uzunluqda olur. Ölümündən sonra bağırsağın divarının əzələləri boşaldığından onun uzunluğu 6 metrə çatır.
* İnsanda təqribi 2 milyon tər vəzi mövcuddur. Orta yaşlı adam hər litr tər tökdükdə 54% kalori itirir. Kişilər qadınlara nisbətən 40% çox tərləyirlər.
* İnsanın sağ ağciyəri sol ağciyərinə nisbətən özünə daha çox hava yerləşdirir.
* İnsan gözü 10 000 000 rəng çeşidi fərqləndirməyə qadirdir.
* İnsanın ağzında 40 000 bakteriya mövcuddur.
* Papafobiya-Roma papasından qorxmaqdır.
* Açıq gözlə asqırmaq mümkün deyil.
* İnsan orqanizmində 2000-ə yaxın dad bilmə reseptoru var.
* İnsan orqanizmində olan piylər 7 ədəd sabun istehsalı üçün lazım olan miqdardadır.
* İnsan bədənində nerv impulsları saniyədə 90 metr sürətlə hərəkət edir.
* İl ərzində insan ürəyinin döyüntülərinin sayı 36 800 000-dir.
* Kişilər qadınlara nisbətən 10 dəfə çox daltonizmdən əziyyət çəkirlər.
* Uşaq doğulanda bədənində 300 sümük olur, böyüdükcə onlardan 206-sı qalır.
* İnsan sümüylərinin təqribi yarısı bilək və pəncədə yerləşir.
* Mavi gözlü insanlar digərlərinə nisbətən ağrıya daha həssasdırlar.
* Əl barmaqların dırnaqları ayaq barmaqların dırnaqları ilə müqayisədə 4 dəfə tez böyüyür.
* Ömür boyu insan dərisi 1000 dəfə dəyişir.
* Güclü işıq nəticəsində görmə qabiliyyəti itirmə halına "qar korluğu" deyilir.
* Qripə səbəb olan 100 müxtəlif virus mövcuddur.

## İspaniyada mənzildə 15 il öncə ölmüş şəxsin cəsədi aşkarlandı




**İspaniyanın Valensiya şəhərindəki mənzildə kişi meyiti tapılıb. Meyitin təxminən 15 il mənzildə qaldığı məlum olub. Bu barədə "Levante-EMV" məlumat yayıb. Qonşular uzun illər yerli sakindən xəbər ala bilməyiblər. Bəziləri onun qocalar evinə yerləşdirildiyini, bəziləri isə qohumlarının onu evə apardığını düşünüblər. Cəsəd təsadüfən tapılıb. Son bir neçə gün ərzində yağan yağışlar səbəbindən ərazini su basıb və mərhumun mənzilinə sızmağa başlayıb. Mənzildən çıxan su qara və üfunət qoxulu olduğundan qonşuları narahat edib və onlar hüquq-mühafizə orqanlarına müraciət ediblər.**

Yanğınsöndürənlər yataq otağının döşəməsində paltarlı kişi skeleti aşkar ediblər. Polisin ilkin məlumatına görə, o, təbii səbəblərdən ölüb. 1939-cu ildə anadan olan mərhumun keçmiş həyat yoldaşı və iki övladı ilə əlaqəsi olmayıb. Bu illər ərzində kişinin kommunal xidmətlərə 11 000 avro borcu yığılıb. Lakin bu borc onun yaşa görə pensiyası hesabına ödənilib.

## Yeməkdən sonra niyə mədə ağrıyır? - Rusiyalı həkimdən açıqlama



**Nahardan sonra mədədə ağırlıq, kəskin ağrı və qıcqırma bir çoxlarına tanışdır. Çox vaxt insanlar bu halda dərhal qastrit, xroniki pankreatit və ya öd kisəsində "qum" barədə düşünürlər. Bu barədə rusiyalı qastroenteroloq Andrey Xaritonov KP.ru-ya müsahibəsində bəhs edib. O qeyd edib ki, bu simptomların əksəriyyəti tamamilə fərqli səbəblərdən qaynaqlanır. "Ağrı və diskomfort çox vaxt funksional dispepsiya ilə əlaqəli olur ki, bu zaman hansısa görünən zədələnmə olmadan mədə fəaliyyəti pozulur. Simptomlar sinirlərin dartılmağa, normal xlor turşusuna və ya safraya həssaslığının artması səbəbindən yaranır. Stres, narahatlıq və kifayət qədər yuxunun olmaması bu hissləri gücləndirir", - deyə ekspert bildirib.**

Dərin yerləşmiş sinirlər beyinə siqnal göndərir, buna görə də emosional gərginlik və ya yorğunluq yeni ağrı spazmalarına səbəb ola bilər. Bənzər mexanizm qıcıqlanmış bağırsaq sindromu zamanı da ortaya çıxır. Bu halın yüngülləşdirilməsi üçün həyat tərzinin və yuxunun tənzimlənməsi, narahatlığın azaldılması lazımdır. Həmçinin antidepresanlar da daxil olmaqla, həkimin təyinatı ilə neyromodulyatorlardan da istifadə edilə bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lìsenzìya N: B 114
SAYI: 1.500

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksiyanın mövqeyì uyğun gəlməyə bìlər.